QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 174 (5646) **15 sentyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Azərbaycanda ümumi savadlılıq səviyyəsi 100 faizə yaxındır"

## *İlham Əliyev: "Bu, çox gözəl göstəricidir. Bu gün dünyada savad, bilik, texnologiyalar hər şeyi həll edir"*

Səh 2



5

**BMT ilə Azərbaycan arasında reallaşdırılan layihələr uğurla icra olunur**



6

**Milli Məclisdə "Siyasi plüralizm və parlament təcrübəsi" mövzusunda "dəyirmi masa" keçirilib**



7

**"Sentyabrın 15-də keçiriləcək parad bizi sevməyən qüvvələrə bir mesajdır"**



# “Azərbaycanda ümumi savadlılıq səviyyəsi 100 faizə yaxındır”

## *İlham Əliyev: “Bu, çox gözəl göstəricidir. Bu gün dünyada savad, bilik, texnologiyalar hər şeyi həll edir”*






***Sentyabrın 14-də Bakının Sabunçu rayonunun Maştağa qəsəbəsindəki Savalan yaşayış massivində 28 nömrəli tam orta məktəbin açılış mərasimi olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib.***

Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsib. Məktəbin direktoru Qənirə Əmircanova Prezident İlham Əliyevə yeni məktəb binasında yaradılan şərait barədə məlumat verib. Bildirildi ki, bu təhsil ocağının təməli 2017-ci ilin sentyabrında qoyulub. Məktəbin həyətində genişmiqyaslı abadlıq və quruculuq işləri aparılıb, açıq havada idman meydançası yaradılıb. Qeyd olunub ki, Savalan yaşayış massivinin əhalisinin sayı 25 min nəfərdən çoxdur. Əvvəllər yaşayış massivində məktəb olmadığından şagirdlər təhsillərini rayonun Maştağa, Zabrat və digər qəsəbələrindəki təhsil ocaqlarında alırdılar. Üçmərtəbəli yeni məktəb binasının inşaat işləri yüksək keyfiyyətlə yerinə yetirilib.

Sonra dövlətimizin başçısı məktəbin bir qrup müəllim və şagirdi ilə görüşüb. Azərbaycan Prezidenti görüşdə çıxış edib. Dövlət başçısı qeyd edib ki, 960 şagird yerlik məktəbdə indi oxumaq, işləmək üçün bütün şərait yaradılıb. Bu gözəl təşəbbüs bir daha onu göstərir ki, Azərbaycanda təhsilə çox böyük diqqət yetirilir:

“Əlbəttə, harada ki, məktəbin inşasına ehtiyac var, biz orada mütləq məktəb tikintisi ilə məşğul oluruq, o cümlədən bu yerdə. Demək istəyirəm ki, bu il bütövlükdə Bakı şəhərində 19 məktəb tikilib və əsaslı təmir olunub. Demək olar ki, Bakı şəhərinin məktəblərinin əksəriyyəti artıq yaxşı vəziyyətdədir. Hələ də təmirə ehtiyacı olan məktəblər var və biz onları gələn illərdə təmir edəcəyik. Ölkəmizdə isə bu il 200-dən çox məktəb tikilib və təmir olunub. Ucqar kəndlərdə, kiçik kəndlərdə 137 modul tipli məktəb tikilib. O kəndlərdə ümumiyyətlə məktəblər qəzalı vəziyyətdə idi. Qəzalı məktəblərin sökülməsi və onların yerində yeni məktəblərin tikintisi proqramı da ümid edirəm ki, gələn il başa çatacaq. Beləliklə, Azərbaycanda məktəb fondu ən müasir standartlara cavab verəcək. İstəyirəm ictimaiyyət onu da bilsin ki, son 15 il ərzində Azərbaycanda 3 mindən çox məktəb tikilib və əsaslı təmir edilib. Bu, təhsil sahəsinə çox böyük töhfədir.

Məktəbdə uşaqlar yaxşı oxumalıdır. Bir halda ki, belə gözəl şərait var, burada təhsilin keyfiyyəti də yüksək olmalıdır. Məktəb, eyni zamanda, müəllimlərin iş yeridir və müəllimlərin şəraiti də yaxşılaşır. Müəllim olmaq istəyənlərin sayı artır, müəllim peşəsinin hörməti artır və bu, çox sevindirici haldır. Çünki müəllim uşaqların, gənclərin tərbiyə olunmasında valideynlərlə bərabər aparıcı rol oynayır.

Bir məsələni də diqqətinizə çatdırmaq istəyirəm. Mənə verilən məlumata görə, bu il 500-dən artıq bal toplayan 2 mindən çox abituriyent müəllim peşəsini seçib. Bu, müəllim peşəsinə olan marağın ən bariz nümunəsidir. Müqayisə üçün deməliyəm ki, 2016-cı ildə 500-dən çox bal toplayan abituriyentlərin cəmi 1 nəfəri müəllim peşəsini seçmişdi, indi isə 2 min. Bu, ilk növbədə, məktəb fondunun müasirləşdirilməsini, məktəblərin əksəriyyətində gözəl şəraitin olmasını, müəllimlərin məişət problemlərinin həllini göstərir. Son illər ərzində müəllimlərin maaşları əhəmiyyətli dərəcədə artıb və cəmiyyətdə müəllimə olan ənənəvi hörmət bərpa edilir. Bu, çox sevindirici haldır. Ona görə müəllimlərin problemlərinin həlli üçün gələcəkdə də işlər aparılacaq.

Ardı Səh. 3

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Bəxtiyar Sadıqovun “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Bayıl-Bibiheybət-Lökbatan kollektorunun inşası ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin “Azad iqtisadi zonalar yaradılması işinin sürətləndirilməsi haqqında” 2017-ci il 31 may tarixli 2940 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 9 sentyabr tarixli 248 nömrəli Fərmanı ilə təsdiq edilmiş “15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə”də dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 23 oktyabr tarixli 3 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə”də dəyişiklik edilməsi haqqında Fərmanı imzalayıb.

* * *

Prezident İlham Əliyev “Azərbaycan” qəzeti əməkdaşlarının “Tərəqqi” medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev “Azərbaycan” qəzetinin əməkdaşlarına “Əməkdar jurnalist” fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb.

# “Azərbaycanda ümumi savadlılıq səviyyəsi 100 faizə yaxındır”

*İlham Əliyev: “Bu, çox gözəl göstəricidir. Bu gün dünyada savad, bilik, texnologiyalar hər şeyi həll edir”*







Əvvəli-Səh-2

Təhsil sahəsində aparılan köklü islahatlar səmərə verir, təhsilin keyfiyyəti artır. Biz bunu müxtəlif göstəricilərdə görürük və ümid edirəm ki, bu uğurlu proses bundan sonra da davam etdiriləcəkdir.

Uşaqlar isə yaxşı oxumalıdırlar, gələcəkdə cəmiyyətdə layiqli yer tutmaq üçün, ilk növbədə, gərək bilikli, savadlı olsunlar. Azərbaycanda ümumi savadlılıq səviyyəsi 100 faizə yaxındır. Bu, çox gözəl göstəricidir. Bu gün dünyada savad, bilik, texnologiyalar hər şeyi həll edir. Baxın inkişaf etmiş ölkələrin vəziyyətinə. Onların arasında ancaq yüksək texnologiyalara malik olan ölkələr var. Təbii ehtiyatlar, neft-qaz resursları - bunlar sadəcə olaraq bir vasitədir. Ölkələri inkişafa doğru aparan əsas amillər savad, bilik, texnologiyalar, innovasiyalar, yeniliklərdir. Ona görə Azərbaycanda gənclər çox bilikli, savadlı olmalıdırlar. Azərbaycanda müasir texnologiyalara çox böyük dəstək verilir, bu, dövlət siyasətidir. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı olmadan müasir cəmiyyətlər uğurlu fəaliyyət göstərə bilməz. Ona görə, ilk növbədə, uşaqlar maraqlı olmalıdırlar ki, yaxşı oxusunlar və gələcəkdə həm özləri üçün gözəl həyat qursunlar, həm ölkəmizin inkişafına töhfə versinlər. Əlbəttə ki, gənclərin tərbiyəsi ilə bağlı həm müəllimlər, həm valideynlər ciddi məşğuldurlar və mən bunu alqışlayıram. Azərbaycan gəncləri vətənpərvər gənclərdirlər və bundan sonra da bizim gənclərimiz vətənpərvərlik ruhunda, milli ruhda tərbiyə almalıdırlar.

Bilirsiniz ki, bu gün ölkəmizin dünyadakı rolu, əhəmiyyəti artır. Bölgədə Azərbaycanın iştirakı olmadan heç bir layihə icra edilə bilməz. Yaşadığımız regionda bizim siyasətimizdən, qərarımızdan çox şey asılıdır. Əlbəttə, bu amili nəzərə alaraq Azərbaycana təsir etmək istəyən xarici qüvvələrin də sayı az deyil. Azərbaycan vətəndaşları bunu bilirlər. Ancaq bizim çox güclü siyasi iradəmiz qoymur ki, Azərbaycanı hansısa avantüralara, yaxud da bizim milli maraqlarımıza uyğun olmayan təşəbbüslərə çəksinlər. Ona görə ki, bizim çox güclü siyasi iradəmiz, güclü iqtisadi potensialımız var. Biz müstəqil siyasət aparırıq, heç kimdən asılı deyilik. Hesab edirəm, Prezident kimi fəaliyyətim dövründə bu əsas nəticələrdən biridir ki, bu gün Azərbaycan tam müstəqil siyasət aparır. O siyasət ki, milli maraqlar və ənənəvi dəyərlər üzərində qurulubdur və elə etməliyik ki, gələcək nəsil də öz gələcəyini bu istiqamətdə görsün. Gələcək nəsil də, ilk növbədə, vətənpərvər olmalıdır, milli ruhda tərbiyə almalıdır, öz doğma Vətəninə bağlı olmalıdır, bizim qədim ənənələrə sadiq olmalıdır və bilikli, savadlı olmalıdır. Belə olan halda ölkəmizin gələcəyi də parlaq olacaqdır. Belə olan halda Azərbaycan daim müstəqil siyasət aparacaq. Çünki bizim siyasətimiz həyatda öz əksini tapıb. İndi baxın, dünyanın müxtəlif yerlərində qanlı toqquşmalar, müharibələr, iqtisadi-sosial böhranlar, inqilablar geniş vüsət alıb. Təhlükə mənbələri getdikcə artır. Getdikcə daha çox narahatedici məqamlar üzə çıxır. Ancaq Azərbaycan sabitlik məkanıdır. Azərbaycanda insanlar sülh, təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşayırlar. Azərbaycanda sosial və iqtisadi məsələlər öz həllini tapır. İndi baxın, ölkəmizə nə qədər böyük investisiyalar qoyulur. Əgər biz təkcə təhsil sahəsini götürsək, üç min məktəbin tikintisi böyük maliyyə vəsaiti tələb edir. Yollar, su xətləri, elektrik xətləri, qazlaşdırma, hərbi gücümüzün möhkəmləndirilməsi, energetika və nəqliyyat layihələrimiz. Bütün bunları biz öz hesabımıza etmişik. Bu gün dünya miqyasında, xüsusilə yaşadığımız regionda Azərbaycan seçilən ölkələrdəndir. Sülh, əmin-amanlıq, inkişaf, sosial rifah Azərbaycanda təmin edilir və bundan sonra da təmin olunacaq. Çünki bizim gələcəyimizlə bağlı heç bir narahatlıq, heç bir şübhə yoxdur. Çünki biz bundan sonra da ancaq inkişaf yolu ilə gedəcəyik.”

Daha sonra Dövlətimizin başçısı müəllimlərlə söhbət edib.

# “Azərbaycanda ümumi savadlılıq səviyyəsi 100 faizə yaxındır”

*İlham Əliyev: “Bu, çox gözəl göstəricidir. Bu gün dünyada savad, bilik, texnologiyalar hər şeyi həll edir”*




**Əvvəli-Səh-3**

x x x

Daha sonra Prezident İlham Əliyev məktəbdə yaradılan şəraitlə tanış oldu.

Diqqətə çatdırıldı ki, təhsil müəssisəsi 960 şagird yerlikdir. Burada sinif otaqları bütün zəruri dərs ləvazimatları ilə təchiz edilib. Məktəbdə birinci sinif şagirdləri üçün hələlik 5 sinfin açılması nəzərdə tutulur. Onların hər birində 24 şagirdin təhsil alması planlaşdırılıb. Ehtiyac yarandığı halda əlavə siniflərin açılması üçün də imkanlar var. Birinci siniflərin şagirdləri dərslik və məktəbli çantaları ilə təmin olunublar. Ümumilikdə, məktəbdə kimya, fizika, biologiya, hərbi, informatika, texnologiya, fənn kabinetləri və laboratoriyalar, müəllimlər, tibb, arxiv otaqları var. Məktəbin fizika, kimya və biologiya laboratoriyalarında şagirdlərin nəzəri biliklərini artırmaları üçün hərtərəfli imkan yaradılıb. Gənclərin çağırışaqədərki hazırlıq kabineti də zəruri avadanlıqla təchiz olunub.

Təhsil müəssisəsindəki əmək təlimi otaqlarında şagirdlər bacarıqlarını nümayiş etdirə və peşə vərdişlərini üzə çıxara biləcəklər. Məktəbin zəngin kitabxanası da müasir səviyyədə qurulub. Şagirdlərin ixtiyarına veriləcək oxu zalında mütaliə etmək üçün hər cür şərait var. 200 nəfərlik akt zalında isə müxtəlif kütləvi tədbirlərin keçirilməsi üçün bütün imkanlar yaradılıb. Şagirdlər ümumi sahəsi 540 kvadratmetr olan və bütün zəruri avadanlıqla təchiz edilən zalda idmanla məşğul ola biləcəklər.

Burada yaradılan şərait bir daha sübut edir ki, son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə təhsilin inkişafı istiqamətində aparılan islahatlar bu sahənin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması ilə nəticələnib. Bütün bu işlər həm də onu göstərir ki, Azərbaycanda təhsilin və elmin inkişafına ən yüksək səviyyədə dövlət qayğısı var. Bu, hər şeydən əvvəl Azərbaycanda insan kapitalının daha da inkişaf etdirilməsi, gənc nəslin müasir, intellektual və savadlı yetişməsi üçün dövlətin həyata keçirdiyi siyasətin əsas prioritetlərindən biridir. Odur ki, son illər təhsil sahəsinə qoyulan investisiyalar, o cümlədən yeni-yeni məktəb binalarının inşası, mövcud təhsil müəssisələrində yeni korpusların tikilməsi və əsaslı təmirin aparılması mühüm əhəmiyyət kəsb edir. Sonda xatirə şəkli çəkdirildi.

# Prezident İlham Əliyev TOTAL şirkətinin baş icraçı direktorunu qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də TOTAL şirkətinin baş icraçı direktoru Patrik Puyaneni qəbul edib. AZƏRTAC xəbər verir ki, görüş zamanı TOTAL şirkəti ilə SOCAR arasında neft-qaz sahəsində əməkdaşlığın perspektivləri, “Abşeron” yatağının birgə işlənilməsi çərçivəsində hazırkı işlərin gedişi, neft-qaz strukturunda digər yataqların birgə işlənilməsi imkanları ilə bağlı məsələlər müzakirə edildi.



# BMT ilə Azərbaycan arasında reallaşdırılan layihələr uğurla icra olunur

Sentyabrın 14-də Azərbaycan Respublikası Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov ölkəmizdə səfərdə olan BMT-nin baş katibinin müavini, BMT-nin Təlim və Tədqiqatlar İnstitutunun icraçı direktoru Nikhil Set ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Əli Əhmədov Azərbaycanla BMT arasında mövcud əməkdaşlıq münasibətlərini və əlaqələrin möhkəmləndirilməsi istiqamətində atılan addımları yüksək qiymətləndirib. Baş nazirin müavini BMT ilə Azərbaycan arasında reallaşdırılan layihələrin uğurla icra olunduğunu bildirib. O, belə layihələrin bir çoxunun Dayanıqlı İnkişafla bağlı olduğunu vurğulayaraq, Dayanıqlı İnkişaf Məqsədləri çərçivəsində həyata keçirilən tədbirlərin reallaşmasında BMT-nin verdiyi dəstəyin böyük önəm kəsb etdiyini diqqətə çatdırıb.

Qeyd edilib ki, Prezident İlham Əliyevin 2016-cı il 6 oktyabr tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb və Şuranın daimi əsaslarla fəaliyyət göstərən katibliyi formalaşıb. Azərbaycan Hökuməti Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələn vəzifələri həyata keçirmək üçün bütün qüvvələrini səfərbər edib və Baş nazirin müavini Milli Əlaqələndirmə Şurasına sədr təyin olunub. Milli Əlaqələndirmə Şurası qısa vaxt ərzində bir çox mühüm işlər görüb.

Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov 2019-cu ildə Dayanıqlı İnkişaf Məqsədləri üzrə Azərbaycan Respublikasının ikinci Könüllü Milli Hesabatının təqdim ediləcəyini də bildirib. BMT-nin baş katibinin müavini, BMT-nin Təlim və Tədqiqatlar İnstitutunun icraçı direktoru Nikhil Set uzun müddətdir Azərbaycana səfərə gəlməsini arzuladığını söyləyib. Azərbaycanda vətəndaşların mövcud potensialının yaxşı dəyərləndirildiyini vurğulayan qonaq səfərin onda xoş təəssürat yaratdığını vurğulayıb. O, BMT-nin bir sıra ölkələrdə insanlara daha yaxşı həyat şəraiti təmin etmək məqsədilə müxtəlif layihələr həyata keçirdiyini söyləyib. Azərbaycanın Cenevrədəki BMT bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi səfir Vaqif Sadıqov görüşdə iştirak edib.

# Ordumuz genişmiqyaslı təlimlərə başlayır



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə sentyabrın 17-dən 22-dək Azərbaycan Ordusunun müxtəlif qoşun növləri, qismləri, birlik və birləşmələrinin iştirakı ilə genişmiqyaslı əməliyyat-taktiki təlimləri keçiriləcək. Müdafiə Nazirliyindən SİA-ya verilən məlumata görə, təlimlərə 20 mindən artıq şəxsi heyət, 200-dən çox tank və digər zirehli texnika, 120-dən çox müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 10-dək qırıcı və bombardmançı, 20-dək müxtəlif təyinatlı ordu aviasiyası cəlb olunacaq. Təlimlər zamanı eşelonlaşdırılmış düşmən müdafiəsinin tanklar vasitəsilə müxtəlif istiqamətlərdə yarılması, Qarabağ ərazisindəki Ermənistan hərbi qruplaşmalarının, eləcə də onun ön xətt qüvvələrinin darmadağın edilməsi, düşmən ərazisinin dərinliyində yerləşən hərbi və strateji obyektlərin raket-artilleriya və aviasiya zərbələri ilə məhv edilərək ərazilərimizin azad edilməsi üzrə tapşırıqlar yerinə yetiriləcək. Təlimlərdə həmçinin son illər ərzində Azərbaycan Ordusunun silahlanmasına qəbul edilmiş ən yeni hərbi texnika və silahlara şəxsi heyətin yiyələnmə vərdişləri yoxlanılacaq.

# "Bu gün Azərbaycan-İsrail münasibətləri yüksək səviyyədədir"



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov sentyabrın 14-də İsrail Dövlətinin müdafiə naziri Aviqdor Liberman ilə görüşüb. SİA xəbər verir ki, görüşdə Novruz Məmmədov İsrailin müdafiə nazirinin Azərbaycana səfərinin ikitərəfli münasibətlərin daha da genişləndirilməsi baxımından əhəmiyyətli olacağına əminliyini ifadə edib. "Bu gün Azərbaycan-İsrail münasibətləri yüksək səviyyədədir. Ölkələrimiz müxtəlif sahələrdə əməkdaşlıq edirlər. Azərbaycanın müstəqilliyinin bərpasından sonrakı illərdə biz iki ölkə arasında yaxşı əlaqələr qura bilmişik", - deyə Baş nazir vurğulayıb.

Azərbaycan-İsrail münasibətlərinin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin, görüşlərin önəmli olduğunu qeyd edən Novruz Məmmədov bildirib ki, bu əlaqələrin inkişafında hər iki ölkə maraqlıdır. Ölkələrimiz arasında münasibətlərin inkişafı regional və beynəlxalq təhlükəsizlik baxımından da önəmlidir. Azərbaycanın tolerantlıq ənənələrindən danışan Baş nazir Novruz Məmmədov qeyd edib ki, ölkəmizdə müxtəlif xalqların, dinlərin nümayəndələri dostluq, mehribanlıq şəraitində, bir ailə kimi yaşayırlar.

Azərbaycana hər səfəri zamanı böyük məmnunluq hissi keçirdiyini vurğulayan İsrailin müdafiə naziri Aviqdor Liberman ölkəmizdə özünü doğma evindəki kimi hiss etdiyini qeyd edib. Ölkələrimiz arasında uzun illərdir mehriban və möhkəm əlaqələrin mövcud olduğunu qeyd edən müdafiə naziri bildirib ki, bu münasibətlərin inkişafında ulu öndər Heydər Əliyevin xüsusi rolu olub. Hazırda hər iki ölkə rəhbərlərinin səyləri nəticəsində bu əlaqələr inkişaf edir. Görüşdə hərbi sahə ilə yanaşı, kənd təsərrüfatı, turizm və digər sahələrdə əməkdaşlığın və təcrübə mübadiləsinin genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

# Siyavuş Novruzov Monteneqro Sosialistlərinin Demokratik Partiyasının nümayəndə heyəti ilə görüşüb



Sentyabrın 14-də Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov ölkəmizdə səfərdə olan Monteneqro Sosialistlərinin Demokratik Partiyasının nümayəndə heyəti ilə görüşüb. SİA-nın verdiyi məlumata görə, qonaqları salamlayan Siyavuş Novruzov bu səfərin partiyalar arasında əlaqələrin daha da inkişafına töhvə verəcəyini bildirib. Siyavuş Novruzov deyib ki, YAP-la Monteneqro Sosialistlərinin Demokratik Partiyasının geniş əlaqələri mövcuddur. Partiyalar arasında əməkdaşlıq haqqında sənədin də imzalandığını, qarşılıqlı səfərlərin baş tutduğunu xatırladan S.Novruzov bütün bunların əlaqələrin inkişafına xidmət etdiyini diqqətə çatdırıb. Siyavuş Novruzov tərəflərin həmçinin beynəlxalq təşkilatlar, o cümlədən NATO Parlament Assambleyası çərçivəsində də fəal əməkdaşlıq etdiyini söyləyib.

Azərbaycanla Monteneqro arasında münasibətlərin yüksək səviyyədə olduğunu deyən YAP İcra katibinin müavini hər iki ölkənin prezidentlərinin qarşılıqlı səfərlərinin, eləcə də, dövlətlər arasında imzalanmış sənədlərin münasibətlərin genişlənməsində mühüm rol oynadığını vurğulayıb. Siyavuş Novruzov bildirib ki, iki ölkə arasında siyasi, iqtisadi, mədəni, o cümlədən turizm sahəsində əlaqələr yüksələn xətlə inkişaf edir. Onun sözlərinə görə, dövlətlər və partiyalar arasında münasibətlər bütövlükdə xalqlarımız arasında əlaqlərin inkişafına xidmət edir.

Monteneqro Sosialistlərinin Demokratik Partiyasının Siyasi məsələlər üzrə direktoru Tarzan Miloşeviç Azərbaycana səfər etmələrindən məmnunluğunu bildirib. Azərbaycanla Monteneqro arasında münasibətlərin çox yüksək səviyyədə olduğunu deyən Tarzan Miloşeviç bu münasibətlərin inkişafında dövlət başçılarının rolunu xüsusi vurğulayıb. Münasibətlərin bir çox sahələri əhatə etdiyini deyən qonaq Azərbaycanın Monteneqroya böyük sərmayə yatırdığını xüsusi vurğulayıb. Azərbaycan dövləti tərəfindən Monteneqroda ən müasir standartlara cavab verən uşaq baxçasının tikilib istifadəyə verildiyini qeyd edən Tarzan Miloşeviç bildirib ki, bu hadisə ölkəsində minnətdarlıqla qarşılanır. O, bütün sahərdə olduğu kimi partiyalar arasında əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminliyini ifadə edib. Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı geniş fikir mübadiləsi aparılıb. Görüşdə YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva iştirak edib.

# Milli Məclisdə "Siyasi plüralizm və parlament təcrübəsi" mövzusunda "dəyirmi masa" keçirilib



Sentyabrın 14-də Milli Məclisdə Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin təşkilatçılığı və parlamentdə təmsil olunan siyasi partiya nümayəndələrinin, beynəlxalq gənclər təşkilatları üzvlərinin iştirakı ilə "Siyasi plüralizm və parlament təcrübəsi" mövzusunda "dəyirmi masa" keçirilib. AZƏRTAC-ın məlumatına görə, tədbirdə Milli Məclis sədrinin müavini, insan hüquqları komitəsinin sədri Bahar Muradova bildirib ki, parlamentin tərkibi Azərbaycanın siyası palitrasını özündə tam şəkildə əks etdirir. Parlamentdə 11 siyasi partiya təmsil olunur. Sədr müavini iştirakçılara parlamentin qanun yaradıcılığı prosesi, ölkədə insan hüquqlarının təminatı, digər ölkələrlə və parlamentlərlə qarşılıqlı əməkdaşlığın perspektivləri barədə məlumat verib. Bahar Muradova Azərbaycanın beynəlxalq təşkilatlarla və dünya dövlətləri ilə əlaqələrindən, mövcud münasibətlərin daha da inkişaf etdirilməsi istiqamətində görülən işlərdən bəhs edib.

Sədr müavini qeyd edib ki, bu tədbir ölkəmiz üçün əlamətdar bir vaxta, müsəlman Şərqində ilk demokratik cümhuriyyət qurmuş Azərbaycan parlamentinin 100 illik yubileyi ərəfəsinə təsadüf edir. Sentyabrın 21-də Milli Məclisin binasında 50-dək ölkənin nümayəndəsi, parlament rəhbərləri, beynəlxalq təşkilatların rəsmilərinin iştirakı ilə təntənəli yubiley tədbirləri keçiriləcək.

Bahar Muradova bildirib ki, bu tədbirin əsas məqsədi Azərbaycanda parlamentarizmin, dövlətçiliyin yaranması və inkişafı məsələləri ətrafında iştirakçıları məlumatlandırmaqdır. Həmçinin Azərbaycan parlamentinin keçdiyi yol, bu müddət ərzində vətəndaş cəmiyyətinin formalaşması, siyasi plüralizmin inkişafı və parlamentarizm ənənələrinin möhkəmlənməsi istiqamətində atılan addımlar, nailiyyətlərimiz, uğurlarımız barədə fikir mübadiləsinin aparılmasıdır.

Tədbirdə çıxış edən Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri, Yeni Azərbaycan Partiyası icra katibinin müavini Siyavuş Novruzov tədbir iştirakçılarına Azərbaycan Xalq Cümhuriyyətinin, parlamentin yaranması tarixi, seçki sistemi haqqında geniş məlumat verib. Qeyd olunub ki, bu gün Yeni Azərbaycan Partiyası parlamentdə 68 deputatla təmsil olunur. Parlamentin strukturu barədə məlumat verən Siyavuş Novruzov komitələrin iş prinsipindən də danışıb. Diqqətə çatdırıb ki, Azərbaycan parlamenti bir çox beynəlxalq təşkilatların üzvüdür. Bu cür qarşılıqlı əlaqələr Azərbaycanda qanunvericilik təşəbbüsünün təkmilləşməsinə xidmət göstərir.

"Hər birinizin məlumatlı olduğu və bizim ən ağrılı problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bütün parlamentin mövqeyi yekdildir. Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır. İşğal altında olan torpaqlarımızın geri qaytarılması istiqamətində parlament də öz fəaliyyətini göstərir. Əsas məqsədimiz odur ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır və bir milyondan çox qaçqın və məcburi köçkün öz yurduna qaytarılmalıdır", - deyə Siyavuş Novruzov qeyd edib.

Sonra toplantıda Avropa Demokratik Gənclər İcmasının (DEMYC) sədri Havier Hurtado təmsil etdiyi qurum barədə geniş məlumat verib. Bildirilib ki, DEMYC əməkdaşlıq platformasıdır və Avropanın ən güclü siyasi gənclər təşkilatlarından biridir. 1964-cü ildə təsis olunub. Havier Hortado, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində təşkilatın dəstəyini təklif edib, münaqişə tərəfləri arasında dialoqun yaranmasına dəstək ola biləcəklərini söyləyib.

Tədbirdə iştirak edən Milli Məclisin deputatları, Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı, Sosial-Demokrat Partiyasının sədri Araz Əlizadə, Vəhdət partiyasının sədri Tahir Kərimli, Sosial Rifah Partiyasının sədri Xanhüseyn Kazımlı, BAXCP-nin sədri Qüdrət Həsənquliyev, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa, Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev, Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev ölkənin ən ağrılı problemi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən söhbət açıblar. Qeyd olunub ki, 25 ildən artıqdır davam edən münaqişə bütün regionun təhlükəsizliyi üçün ciddi təhdiddir. Tədbirdə Şanxay Əməkdaşlıq Təşkilatının Gənclər Şurasının sədri Talaybek Dayirbekov, DEMYC-in baş katibi Marqarita Saltinin, Mərakeş parlamentinin üzvü Abdulmecid Fassi, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov çıxış edərək öz fikirlərini bildirib, tədbirin əhəmiyyətindən danışıblar.

# "Jewish Journal" nəşri Lev Landau haqqında yazıb

***Amerikada çıxan "Jewish Journal" nəşrində Azərbaycan dağ yəhudiləri icmasının rəhbəri Milix Yevdayevin məqaləsi dərc edilib. SİA xəbər verir ki, "Lev Landau: Azərbaycandan olan, Nobel mükafatına layiq görülmüş dahi yəhudi fizik" sərlövhəli materialda əslən Bakıdan olan görkəmli alim Lev Landaunun həyatından və elmi nailiyyətlərindən bəhs edilir. Müəllif yazır ki, Landau 1962-ci ildə maye heliumun kondensasiyalı vəziyyətinin novator nəzəriyyələrinə görə fizika üzrə Nobel mükafatına layiq görülüb.***


JEWISH JOURNAL

## Lev Landau: A Jewish Physicist and Nobel-Winning Genius from Azerbaijan

JJ DAILY ROUNDTABLE
Is the Middle Class Making a Comeback?
Is John Bolton Attacking the ICC to Defend Israel?
Do We Know Anything About Julia Salazar?
SIGN UP FOR ROUNDTABLE

NOMINATE TEEN LEADERS REPAIRING THE WORLD

JJ LATEST STORIES
Labour MP Walks Away When Confronted About Charedi 'Costumes' Comment
Netanyahu Spokesman to Take Time Off in Response to Sexual Misconduct Allegations

Landau 1908-ci il yanvarın 22-də Azərbaycanın paytaxtı Bakıda yəhudi ailəsində anadan olub. Onun atası Bakıda neft sənayesində çalışan görkəmli mühəndis idi, ixtisasca fizik olan anası isə Bakıdakı yəhudi orta məktəbində, habelə Bakı Dövlət Universitetində dərs deyib. M.Yevdayev öz məqaləsində Landaunun elmi fəaliyyəti və bu yolda qazandığı uğurlar barədə söhbət açır. 1929-cu ildə Rokfeller Təqaüdü Fondunun dəstəyi ilə Avropaya on səkkiz aylıq elmi səyahətə çıxan Landau Almaniya, İsveçrə, Böyük Britaniya, Niderland, Belçika və Danimarkada tədqiqatlar aparıb, elmi konfranslarda iştirak edib.

Müəllif yazır ki, Landau öz mədəni tolerantlığı ilə məşhur olan Azərbaycanda doğulub və bir neçə il bu ölkədə yaşayıb. Bu diyarda cəmiyyətin bütün başqa üzvləri ilə bərabər hüquq və azadlıqlardan istifadə edən yəhudi uşaqlar öz məqsədlərinə doğru irəliləmək, məşhur alim olmaq imkanına malikdir. Bunu Azərbaycan Ali Məhkəməsinin hakimi Tatyana Qoldman, Azərbaycan parlamentinin deputatı Yevda Abramov, yəhudi həkim və alim Qavriil İlizarov, Azərbaycanın yəhudi millətindən olan digər tanınmış liderlərin və qəhrəmanların nümunəsi buna əyani sübutdur. Lev Landau Azərbaycan xalqı və bu ölkədə yaşayan yəhudilər üçün həmişə qürur obyekti olub. Burada müxtəlif etnoslara mənsub olan, dini ənənələri fərqli olan insanlar əsrlər boyu sülh və həmrəylik şəraitində yaşayır. Bakıda görkəmli alimin doğulduğu binada xatirə lövhəsi vurulub. Bundan əlavə, Bakının mərkəzində ən gözəl küçələrdən birinə Landaunun adı verilib.

## "Azərbaycanın və Türkiyənin AŞPA-da tez-tez tənqid olunması ikili standartların təzahürüdür"

"Avropa Şurası Parlament Assambleyasında Azərbaycanın tez-tez tənqid olunması ikili standartların təzahürüdür." Bu fikri Rusiyanın "İzvestiya" qəzetinə müsahibəsində bu ölkənin Avropa Şurası yanında daimi nümayəndəsi İvan Soltanovski söyləyib. Ölkəsinin Avropa Şurası Parlament Assambleyası ilə münasibətlərindən danışan rusiyalı diplomat bildirib ki, Rusiyadan başqa bəzi digər dövlətlər də bu qurumda çətinliklərlə rastlaşırlar. "Bizdən başqa Azərbaycan və Türkiyə də tez-tez tənqid obyektinə çevrilir. Biz bunu ikili standartların təzahürü hesab edirik", - deyə o əlavə edib.(AZƏRTAC)




## ABŞ-ın iki siyasətçisi Dağlıq Qarabağa qanunsuz səfər ediblər

ABŞ-ın Kaliforniya ştatının senatoru Antoni Partantino və Qlendeyl şəhərinin meri Zare Sinanyan Azərbaycanın işğal olunmuş Qarabağ bölgəsinə gəliblər. SİA-nın erməni mətbuatına istinadən verdiyi məlumata görə, onlar qondarma rejimin rəhbəri Bako Saakyanla görüşüblər. Görüşdə əsas müzakirə mövzusu Qarabağla Kaliforniya arasında əlaqələrin artırılması məsələsi olub. Qeyd edək ki, Antoni Partantino 2016-cı ildən etibarən Azərbaycan Xarici İşlər Nazirliyinin arzuolunmaz şəxslər siyahısındadır.

# Elçin Quliyev İsrailin müdafiə naziri ilə görüşüb



Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev ölkəmizdə rəsmi səfərdə olan İsrailin müdafiə naziri Aviqdor Libermanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlət Sərhəd Xidmətindən SİA-ya verilən məlumata görə, rəsmi protokola uyğun olaraq İsrail rəsmisi "Fəxri qonaq kitabı"na ürək sözlərini yazıb. Geniş tərkibdə keçirilmiş görüşdə Azərbaycan və İsrail arasında dostluq və strateji tərəfdaşlıq münasibətləri məmnunluq hissi ilə qeyd olunub, hərbi-texniki və təhlükəsizlik sahələrində birgə fəaliyyətlərin uğurla həyata keçirilməsi xüsusi vurğulanıb.

Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev Azərbaycanın dövlət sərhədlərindəki əməliyyat şəraiti, Ermənistanın təcavüzü nəticəsində ölkə ərazisinin 20 faizinin və dövlət sərhədlərinin bir hissəsinin işğal altında qalması, bu ərazilərin qeyri-qanuni məqsədlərlə istifadə edildiyi və mövcud vəziyyətin sərhəd təhlükəsizliyi üçün əsas təhdid olduğunu vurğulayıb, son dövrdə Azərbaycanın sərhəd mühafizə sisteminin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar, maddi-texniki bazanın müasirləşdirilməsi və gücləndirilməsi üzrə görülmüş işlər, əldə olunmuş nailiyyətlər barədə məlumat verib.

Müzakirələr zamanı regionda cərəyan edən hadisələr, sərhəd təhlükəsizliyinə olan çağırışlar və təhdidlər ətrafında fikir mübadiləsi aparılıb, birgə əməkdaşlığın gələcək perspektivləri və istiqamətləri nəzərdən keçirilib, ikitərəfli əlaqələrin uğurla inkişaf etdirilməsi istiqamətində fəaliyyətlərin davam etdirilməsinin vacibliyi vurğulanıb. Görüş dostluq və qarşılıqlı anlaşma şəraitində keçib.

## "Azərbaycan və Türkiyə ordusunun birgə qələbəsini qeyd etmək böyük şərəfdir"



"Hər bir Azərbaycan və türk vətəndaşı sentyabrın 15-də Bakının işğaldan azad edilməsi ilə bağlı keçiriləcək paraddan qurur duymalıdır. Çünki, 100 il bundan öncə sentyabrın 14-dən 15-nə keçən gecə Bakı şəhərinə Qafqaz İslam Ordusu və yenicə yaranan Azərbaycanın Milli Ordusu daxil olaraq onu işğaldan azad ediblər". Bu fikirləri SİA-ya açıqlamasında "Olaylar" qəzetinin baş redaktoru Yunus Oğuz deyib. Onun sözlərinə görə, əgər Qafqaz İslam Ordusu və yenicə yaranan Azərbaycan əsgərləri Bakıya daxil olmasaydı, ölkəmizdə nələrin baş verəcəyini sözlə ifadə etmək mümkün olmazdı: "Çünki mart ayından başlayaraq, bolşevik-daşnaq hərbi birləşmələri ölkəmizdə qətliam törədir, talanlar edir, insanları doğrayıb, kəsir, əmlaklarını qarət edirdilər. O dövrdə Qafqaz İslam Ordusu faktiki olaraq Azərbaycana gəlməsə idi, ölkəmizdə azərbaycanlı adında bir insan yaşamayacaqdı ".

Qafqaz İslam Ordusunun nəzdində yaranan Azərbaycanın Milli Ordusunun Bakının işğaldan azad olunmasında böyük xidmətləri olduğunu dilə gətirən Y.Oğuz söyləyib ki, bu münasibətlərin fövqündə sabah keçiriləcək parada Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın da iştirak etməsi diqqəti çəkən məqamdır: "Azərbaycan və Türkiyə ordusunun birgə qələbəsini qeyd etmək böyük şərəfdir. Bu, bir daha sübut edir ki, tarixən iki dövlətin arasını vurmağa çalışan qüvvələrin əməyi puça gedir, iki ölkə arasında dostluq, qardaşlıq davam edir". Baş redaktor əlavə edib ki, harada Türkün başı ağrısa o zaman həm Azərbaycan həm Türkiyə, həm də digər dövlətlər buna dəstək verir və verməlidirlər.

## "Sentyabrın 15-də keçiriləcək parad bizi sevməyən qüvvələrə bir mesajdır"



"15 sentyabr Azərbaycan tarixinin ən yaddaqalan, xalqımızın taleyində xüsusi təqvim kimi qeyd olunmağa layiq bir gündür. Çünki 1918-ci ilin sentyabrın 15-də Bakı erməni işğalçılarından azad edilib". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı, tarix elmləri doktoru Fəzail İbrahimli deyib. O bildirib ki, bu tarix ümumi görünüşdə bir şəhərin işğaldan azad olunması, işğalçının məğlubiyyətini ifadə edə bilər: "Lakin məsələnin mahiyyətinə baxdıqda, onun məntiqi dərin köklərə bağlıdır. Burada təkcə Bakının erməni işğalından azad edilməsi deyil, bütün millətin azad edilməsi, müstəqilliyinin əldə edilməsi, xalqın taleyində yeni prosesin başlanması, Şərq islam aləmində elan olunan Demokratik Cümhuriyyətin kağız üzərindən real həyata köçürülməsi idi".

Onun sözlərinə görə, əgər Qafqaz İslam ordusu Bakını erməni işğalçılarından azad etməsəydi, ola bilərdi ki, indiki nəsil yalnız "1918-ci ilin may ayının 26-da Azərbaycanın istiqlalı haqqında bəyannamə qəbul edilib" ifadəsini işlədəcəkdi: " Bu, bir tarixi fikir olaraq qalacaqdı. Lakin Bakının işğaldan azad olunması Azərbaycan Cümhuriyyətinin Bakıya köçməsi elan olunan İstiqlal Bəyannaməsinin real həyata keçirilməsi idi. Bundan sonrakı 23 ay indiki Azərbaycanın var olmasında mühüm rola malik oldu. Bugünkü Azərbaycan o dövrün varisidir". F.İbrahimli söyləyib ki, Çar Rusiyası dövründə müsəlmanlara ordusu olmayan uzun müddət ordudan məhrum olan ikinci dərəceli millət baxılır və müsəlmanlara etibar edilmirdi: "Lakin belə bir dövrdə Nuru Paşanın rəhbərliyi altında Osmanlı dövlətinin göndərdiyi hərbi qüvvə ilə Azərbaycanın istiqlalı uğrunda daxili qüvvələr birləşərək Qafqaz İslam Ordusu adı altında torpaqları azad etdi. Bakı birgə işğaldan azad edilərək, istiqlal əldə olunmuşdu. O dövrdə birgə əldə olunan istiqlal bu gün də davam etməkdədir".

Deputat qeyd edib ki, sentyabrın 15-də keçiriləcək parad bir millət və iki dövlətin birgə səyi, qüvvəsi, Azərbaycan və Türkiyənin hər zaman bir olduğunu dünyaya bəyanı, bizi sevməyən qüvvələrə mesajdır: "Azərbaycan və Türkiyə ordusu birdir. Bir millətin iki dövləti bir dövlətin səviyyəsində fəaliyyət göstərə bilir və istənilən məqamda istənilən addımı atmaq iqtidarındadır". Azərbaycan ordusunun regionda mükəmməl və ən güclü ordu olduğunu deyən F.İbrahimli əlavə edib ki, Erməni işğalçıları bir gün belə Azərbaycan ordusunun qarşısında tab edib, dayana bilməz: "Azərbaycan sadəcə beynəlxalq hüquq normalarına sığınaraq, dünyada sivil dövlət kimi hadisələrin dinc istiqamətdə və sülh yolu ilə uğurlu həllinə çalışır. Əks təqdirdə təbii ki, ölkəmiz hər an öz torpaqlarını işğaldan azad etməyə hazırdır. Bu gün baş verənlər Ermənistanın cəzasını yaxınlaşdırır".

## Azərbaycan, Türkiyə və Gürcüstan arasında hərbi sahədə yeni saziş müzakirə edilir



Azərbaycan, Türkiyə və Gürcüstan arasında hərbi sahədə yeni saziş müzakirə edilir. SİA-nın məlumatına görə, ötən gün keçirilən iclasında Azərbaycan, Gürcüstan və Türkiyə arasında müdafiə sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumun təsdiq edilməsi haqqında məsələ müzakirəyə çıxarılıb. Komitə sədri Səməd Seyidov bildirib ki, Azərbaycan, Türkiyə və Gürcüstan arasında hərbi əlaqələrin güclənməsi çox vacibdir. Bu, hər region üçün vacib əhəmiyyət kəsb edir, həm də bütün dünyaya bir mesajdır. S.Seyidov qeyd edib ki, bu əlaqələr iqtisadi, mədəni və humanitar sahədə deyil, o cümlədən hərbi sahədə yüksək səviyyədə inkişaf edir: "Güclü orduya sahib Azərbaycan Türkiyənin və Gürcüstanın da dəstəyinə malikdir. Bu, Azərbaycan üçün çox vacib və əhəmiyyətlidir".

## Ötən ay Naxçıvandan Bakıya və əks istiqamətə 4 min 800-dən çox sərnişin daşınıb

Avqust ayında İran İslam Respublikasından keçməklə Naxçıvan-Bakı-Naxçıvan avtobus marşrutu ilə Naxçıvandan Bakıya 2501, Bakıdan Naxçıvana isə 2312 sərnişin daşınıb. Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, xidmət tərəfindən avqust ayında muxtar respublikada sərnişindaşıma fəaliyyəti göstərən avtobus və mikroavtobusların texniki müayinəsi keçirilib, 301 avtobusun qeydiyyatı aparılıb.



Muxtar respublikanın bütün yaşayış məntəqələri marşrutla təmin edilib, 488 taksi əhaliyə xidmət göstərib. Avtovağzalların payız-qış mövsümünə hazırlığı da diqqət mərkəzində saxlanılıb, şəhərlərarası və rayonlararası marşrut avtobuslarının qrafiki təkmilləşdirilib, istilik sistemlərinin yoxlanılaraq işlək vəziyyətə gətirilməsi üçün lazımi tədbirlər həyata keçirilib. Muzeylərdə taksi sürücülərinin məlumatlandırılması işinə avtobus sürücüləri də cəlb olunub, həftənin bir günü onların qrup şəklində muzeylərə ekskursiyaları təşkil edilib.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

15 sentyabr 2018-ci il

# Azərbaycan və Rusiya: zamanın sınağından çıxmış münasibətlər

## *Mükəmməl siyasətin nəticəsi: Vladimir Putin Bakını seçdi*



***Məlum olduğu kimi, sentyabrın 25-də Rusiya prezidenti Vladimir Putinin Azərbaycana gözlənilən səfəri baş tutacaq. Sözsüz ki, güclü dövlət başçısı olan Rusiya prezidentinin bu gün üzünü Azərbaycana çevirməsi Prezident İlham Əliyevin uğurlu xarici siyasətinin nəticəsidir. Eyni zamanda, Rusiya prezidentinin səfəri yalnız bu ölkənin mövqeyinin möhkəmləndirilməsinə deyil, eləcə də, Azərbaycanın maraqlarının irəliləyişinə xidmət edir. Müstəqilliyin ilk illərində Azərbaycanla Rusiya arasında problemlər yaransa da, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanın xarici strategiyası öz bəhrəsini verdi. Eyni strategiyaya əsaslanan Prezident İlham Əliyevin düzgün manevrləri ölkəmizi Rusiya kimi regionun super dövlətinin vazkeçilməz tərəfdaşına çevirdi. Son günlər baş verən proseslərin analizinə əsaslanaraq, belə bir nəticəyə gəlməyə əsas verir ki, Moskva Bakıya diktə etmir, onunla hesablaşır. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin Soçi görüşü zamanı Vladimir Putin Azərbaycan lideri ilə bir çox mühüm məsələni müzakirə etdilər. Bu isə, onu sübut edir ki, zaman-zaman işğalçıya dəstək verən Rusiyanın bu gün üzünü Azərbaycana çevirməsi Prezident İlham Əliyevin uğurlu xarici siyasətinin nəticəsidir. Bu görüşdə ən vacib amil olan Dağlıq Qarabağ münaqişəsinin müzakirə edilməsi və Vladimir Putinin bu münaqişənin sülh yolu ilə nizamlanmasına bütün mümkün köməyi göstərəcəklərini davam edəcəyini bildirməsidir.***

Beləliklə, hesab etmək olar ki, Rusiya həm illərdir bəslədiyi Ermənistanı mərkəzdənqaçma siyasətinə görə cəzalandırmaq, həm Azərbaycanın etibarını qazanmaq, həm də öz diplomatiyasına vurulmuş zərbəni aradan qaldırmaq üçün münaqişənin həlli ilə bağlı nəsə etməli olduğunun fərqindədir və proseslərin inkişafı deməyə əsas verir ki, Azərbaycan Prezidentinin apardığı güclü uğurlu xarici siyasəti nəticəsində əldə olunur.

### Azərbaycan və Rusiya: iqtisadi perspektivlər

İki dövlət arasında iqtisadi əraqələrin güclənməsi, məhz Azərbaycan və Rusiya dövlət başçılarının apardığı yüksək iqtisadi siyasətinin nəticəsidir. Soçi görüşləri zamanı 15 sənədin imzalanması da bu əlaqələrin inkişafından xəbər verir. Bir məqamı da, vurğulamaq lazımdır ki, bu gün Avropa Azərbaycan qazına alternativ kimi baxır. Ancaq Bakı üçün vacib olan iqtisadi münasibətlər, ölkənin milli maraqlarıdır və bütün tərəflərin iqtisadi əməkdaşlığının mümkünlüyü və bu layihələrdən xeyir götürmə faktını ortaya qoyur. Rusiyaya qarşı iqtisadi sanksiyaların getdikcə artdığı bir məqamda Azərbaycan heç bir siyasi bloka qoşulmadan, yalnız öz maraqları üçün qonşuları ilə iqtisadi əlaqələrini yüksək səviyyədə tutmaq siyasəti yürütdüyünü daim isbatlamaqdadır. Məhz bu baxımdan da, heç bir siyasi-iqtisadi bloka qoşulmadan, neytral siyasəti ilə bütün dövlətlərlə iqtisadi əlaqələrini inkişaf etdirən Azərbaycan sabit, stabil siyasəti, qəti, birmənalı, dəyişməyən mövqeyi ilə "Qafqazın İsveçrəsi"nə çevrilməkdədir. Azərbaycanın bu mövqeyinin daim qorunmasına dəstək vermək isə, bütün ölkələrin, o cümlədən, Rusiyanın milli və təhlükəsizlik maraqları baxımından olduqca önəmlidir.

### Rusiya Prezidentinin səfəri yalnız bu ölkənin mövqeyinin möhkəmləndirilməsi ilə yanaşı, Azərbaycanın maraqlarının irəliləyişinə xidmət edəcək

Sirr deyil ki, Azərbaycan aparıcı regional oyunçu kimi bir çox məsələlərdə hər zaman beynəlxalq əməkdaşlıq prioritetini müəyyən edir və regionda baş verən bir sıra proseslərə təsir edir. Siyasi politoloqların sözlərinə görə, Rusiya geosiyasi, öz maraqlarının və mövqelərinin möhkəmləndirilməsi baxımından, mühüm strateji tərəfdaş olan Azərbaycanla qarşılıqlı münasibətlərin genişləndirilməsində maraqlıdır və Moskva bu məsələdə Bakıya güvənir. Azərbaycanın simasında, digər qonşu ölkələrdən fərqli olaraq, anti-Rusiya siyasəti aparmayan, Rusiya maraqlarının əleyhinə olmayan dost ölkəni görür. Rusiya Prezidenti Vladimir Putin Soçidə Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü zamanı bildirmişdi ki, Azərbaycan- Rusiya münasibətləri həm siyasi, həm də iqtisadi istiqamətdə inkişaf edir: "Bizim görüşlərimiz müntəzəm xarakter daşıyır və bu da, təbiidir, qarşılıqlı fəaliyyətimizin əhatə dairəsi çox genişdir. Biz bunu strateji tərəfdaşlıq adlandırırıq. Münasibətlərimiz həm siyasi, həm də iqtisadi istiqamətdə inkişaf edir".

Beləliklə, 25 il ərzində iki ölkə arasında qazanılan böyük uğurlar nikbinlik və əminlik yaradır ki, Rusiya-Azərbaycan münasibətlərinin bundan sonra da durmadan inkişaf etdirilməsi xalqlarımızın köklü maraqlarının və amallarının reallaşmasına, hər iki ölkənin beynəlxalq nüfuzunun möhkəmlənməsinə şərait yaradacaq, Cənubi Qafqazda, habelə, onun hüdudlarından kənarda sülhün və qarşılıqlı anlaşmanın dəstəklənməsinə müştərək töhfə olacaq.

**RƏFİQƏ HÜSEYNOVA**

# Bakının azad edilməsinin 100 illiyinə həsr olunan konsert keçiriləcək




Sentyabrın 15-də Heydər Əliyev Mərkəzinin parkında Bakının azad edilməsinin 100 illiyinə həsr olunan konsert keçiriləcək. Mərkəzdən SİA-ya verilən məlumata görə, konsert proqramında Azərbaycanın estrada müğənniləri və musiqi qrupları, həmçinin Türkiyənin məşhur "Anadolu ateşi" rəqs qrupu çıxış edəcək.

Konsert proqramında Vətənə, Bakıya sevgini, Azərbaycan-Türkiyə qardaşlığını vəsf edən, eləcə də populyar mahnılar təqdim olunacaq. Tədbirdə Azərbaycanın xalq artistləri Aygün Kazımova, Eyyub Yaqubov, əməkdar artistlər Lalə Məmmədova, Tünzalə Ağayeva, Sevda Ələkbərzadə, Səbinə Babayeva, həmçinin tanınmış ifaçılar Natavan Həbibi, Ceyhun Zeynalov, Murad Arif, "Qaya" və "Rast" qrupları çıxış edəcəklər. Türkiyənin məşhur "Anadolu ateşi" qrupu əsrarəngiz rəqslərlə gecəyə xüsusi rəng qatacaq. Qeyd edək ki, tədbir 20:00-da başlayacaq. Konsertə giriş sərbəstdir.

# Bu gün ölkəmizdə Bilik Günü qeyd olunur

***Bu gün ölkəmizdə yeni dərs ilinin başlanğıc günü - Bilik Günüdür. Hər bir insanın həyatında bu günün özəl yeri var. Məktəb həyatına ilk çağırış, ilk zəng. Ömrün ən unudulmaz bir zamanına çevrilən bu zəngin sədası illər, qərinələr ötsə də, unudulmur. Bu gün ölkəmizdə məktəbə qədəm qoyan hər bir məktəblinin keyfiyyətli və fasiləsiz təhsil alması üçün bütün imkanlar təmin edilib. Təhsilin keyfiyyətinin yüksəldilməsi üçün dövlətimiz tərəfindən yüksək şərait yaradılıb. Azərbaycanın dünyaya inteqrasiya olunduğu zamanda Azərbaycan təhsilinə yönəlmiş diqqət, məhz bu sahədə zamanın tələblərini ödəyə biləcək ziyalıların yetişməsinə doğru uğurlu bir addımdır.***



İnsanların həvəslə gözlədiyi və böyük məhəbbətlə qeyd etdiyi bu günün kəsb etdiyi mənanın arxasında böyük dəyərlər dayanır. Bu dəyərlərin ən başlıcası isə müasir dövrümüzdə Azərbaycanın gələcək inkişafını təmin edə biləcək, eyni zamanda, vətənpərvərlik ruhunda milli-mənəvi dəyərlərə söykənən mütəxəssislərin təhsilə mükəmməl olaraq yiyələnməsidir. Azərbaycan Prezidenti İlham Əliyevin təhsili dövlət siyasətinin prioritetlərindən biri kimi diqqətdə saxlaması, bu sahədə köklü islahatların aparılması təhsilin məzmun və keyfiyyətinə təsirini göstərir. Orta ixtisas məktəblərində təhsilin idarə edilməsi, eləcə də, onun keyfiyyətinin yaxşılaşdırılması sahəsində kifayət qədər irəliləyişlərin əldə olunması təhsilli, bilikli, savadlı mütəxəssislərin yetişməsinə səbəb olub.

Azərbaycan təhsilinə dövlət tərəfindən göstərilən diqqətin bariz nümunələrindən biri məktəb tikintisinin geniş vüsət almasıdır. Ölkəmizdə yeni məktəb binaları, əlavə korpuslar tikilib və əsaslı təmir olunub. Hazırda ölkəmizin müxtəlif bölgələrində 34 yeni məktəb binası tikilir, 22 məktəb binasında isə, əsaslı təmir-bərpa işləri aparılır. 2018-ci ildə respublika ərazisində 137 modul tipli təhsil müəssisəsi istifadəyə veriləcək. Statistik rəqəmlərə əsasən, deyə bilərik ki, Bakı şəhəri və ölkənin 54 rayonu olmaqla, 193 təhsil müəssisəsində işlər aparılır. Yeni məktəblərin tikintisi, əlavə korpusların inşası, onların əsaslı təmiri, müasir avadanlıqlarla təminatı, infrastrukturunun yeniləşdirilməsi nəticəsində, ümumilikdə, ölkə üzrə 1 milyondan çox şagirdin təlim şəraiti yaxşılaşdırılıb. Bütün bu işlər, ilk növbədə, şagirdlərin ən yüksək səviyyədə təhsil almaları, onların elmin sirlərinə daha dərindən yiyələnmələri üçün hərtərəfli imkanlar açır. Eyni zamanda, müəllim kollektivinin yüksək səviyyədə çalışması üçün geniş imkanlar yaradır. Belə müasir tipli təhsil müəssisələrində 1 592 317 şagird təhsil alacaq. Onlardan 165 780 şagird isə birinci sinifdə təhsil alacaq.

Təhsilin Azərbaycan məktəblilərinə verdiyi imkanlardan kifayət qədər bəhrələnən yeniyetmələr istər Azərbaycanın daxilində, istərsə də, ondan kənarda öz təhsillərini davam etdirmək iqtidarındadırlar. Bu da müstəqil Azərbaycan dövlətinin gənclərə verdiyi ən böyük töhfələrdən biridir. Son illərdə məktəblilərin dərsliklərlə pulsuz təmin edilməsini və s. mühüm halların baş verməsi, məhz görülən işlərin məntiqi nəticəsi kimi qiymətləndirilir. 2018-2019-cu tədris ilində dövlət ümumtəhsil müəssisələrinin I-XI sinifləri üçün 332 adda 6 726 029 nüsxə dərslik və müəllimlər üçün metodik vəsait çap edilib və qeyd etdiyimiz kimi, həmin dərsliklər pulsuz olaraq paylanılıb.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təhsilin keyfiyyətinin yaxşılaşdırılması, təhsili-idarəetmə sisteminin təkmilləşdirilməsi, insan resurslarının inkişaf etdirilməsi, müəllimin karyera imkanları, fəaliyyətinin stimullaşdırılması və müasir təfəkkürlü Azərbaycan vətəndaşının yetişdirilməsinin əsas hədəflərindəndir. Təhsil sahəsində həyata keçirilən tədbirlər ali məktəblərə qəbulun dinamikasında, yüksək bal toplayan tələbələrin sayının artmasında özünü qabarıq şəkildə göstərir. Artıq bir neçə ildir ki, ali məktəblərə qəbul imtahanlarında abituriyentlər tərəfindən ən yüksək göstərici - 700 bal toplanılır. Bu il 700 bal toplayan abituriyentlərin sayı rekord həddə çatıb. Belə ki, ümumilikdə, 29 nəfər 700 bal toplayıb. Ötən 27 il ərzində imtahanların məzmun və formasında aparılan dəyişikliklər abituriyentlərin imtahanlara daha effektiv hazırlaşmalarına, biliklərinin daha obyektiv və şəffaf şəkildə üzə çıxarılmasına kömək göstərib. Təbii ki, bütün bu dəyişikliklər abituriyentlərin nəticələrinə ilbəil öz müsbət təsirini göstərir.

Elə ümumtəhsil məktəblərinin məzunlarının qızıl və gümüş medallarla təltif olunması da bu qəbildəndir. 2017-2018-ci tədris ilinin yekunlarına görə, ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunların 185-i qızıl, 38-i isə gümüş medala layiq görülüb.Bu il ümumi təhsil müəssisələrində tədris ilində ilk dərslər ibtidai siniflərdə "Vətənim Azərbaycan", V-IX siniflərdə "Dövlət rəmzləri-müstəqilliyimizin simvolu", X-XI siniflərdə "Azərbaycan Xalq Cümhuriyyəti-dövlətçiliyimizin bayraqdarı" mövzularına həsr olunacaq. Görülən sistemli işlər qarşıda duran yeni hədəfləri müəyyənləşdirməyə imkan verəcək, təhsil sahəsində milli ruhda və dünyanın aparıcı ölkələrinin təhsil sistemlərinin ən yaxşı örnəklərindən əxz olunan yeni məzmun və forma istiqamətlərində inkişafını təmin edəcəkdir.

Beləliklə, sentyabrın 15-i ölkəmizin bütün ümumtəhsil məktəbləri və ali təhsil ocaqlarında yeni dərs ili başlayır. Yeni dərs ilində bütün təhsil işçilərini, tələbə və şagirdləri yeniliklər gözləyir. Yeniliklər isə, həm də uğurların başlanğıcı deməkdir. Yeni dərs iliniz mübarək!

***Nəzakət ƏLƏDDİNQIZI***

# Mətbuat Şurasında görüş keçirilib

Dünən Azərbaycan Mətbuat Şurasında İran İslam Respublikasının ölkəmizdəki səfirliyinin mətbuat katibi Məhəmmədrza Nəcəfinin səlahiyyət müddətinin başa çatması münasibəti ilə görüş keçirilib. SİA-nın verdiyi məlumata görə, görüşdə həmçinin Azərbaycan-İran arasındakı münasibətlərdən bəhs edilib.

Mətbuat Şurasının sədri Əflatun Amaşov Məhəmmədrza Nəcəfinin indəyədək gördüyü işlərdən danışaraq ona gələcək fəaliyyətində uğurlar arzulayıb. Görüşdə iki ölkənin media orqanları, habelə jurnalistləri arasında təmasların gücləndirilməsinin vacibliyi önə çəkilib. Xüsusən də qarşılıqlı təcrübə mübadiləsinin zəruriliyi üzərində dayanılıb. Bildirilib ki, yaxın qonşu və tarixi-mədəni yaxınlığa malik İran və Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə obyektiv çatdırılması son dərəcə vacibdir. İranın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cavad Cahangirzadə deyib ki, Azərbaycan və İran arasında hərtərəfli əlaqələrin, mədəni, ictimai və media əməkdaşlıqlarının inkişafı İran səfirliyi üçün əsas prioritetdir: "Səfirliyin Mədəniyyət Mərkəzi və Ümumi Siyasət və Mətbuat şöbəsi dost və qardaş Azərbaycanın aidiyyəti orqanları ilə əməkdaşlıq edərək birgə planların icrası ilə iki ölkənin mədəni, ictimai və media əlaqələrinin inkişafına nail olmağa, iki ölkə arasındakı tarixi, mədəni və dini bağlılıqları layiq bir səviyyəyə çatdırmağa çalışırlar. Azərbaycan və İran əlaqələri sarsılmazdır və bütün sahələrdə inkişafa doğru gedir". Səfirin sözlərinə görə, İran və Azərbaycan prezidentlərinin ötən 4 il ərzində 8 görüşü baş tutub. C. Cahangirzadə il ərzində 2 ölkənin 1.5 milyondan çox vətəndaşının qarşılıqlı səfərlərini iki ölkə arasında mövcud olan tarixi, mədəni və dini bağlılıqların nəticəsi olaraq qiymətləndirib.



"Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu da müxtəlif sınaqlardan çıxmış İran-Azərbaycan münasibətlərinin müasir dövrdəki inkişaf xüsusiyyətlərinin müəyyənləşdirilməsində media peşəkarlığının başlıca əhəmiyyət daşıdığı müxtəlif faktlarla əsaslandırı. O bildirib ki, dünyada müsəlman aləminə qarşı birmənalı yanaşmanın mövcud olmadığı hazırkı dövrdə İran və Azərbaycan mediasının müştərək fəaliyyəti baxımdan nəzərdən keçirilməli məqamlar çoxdur. Azərbaycan Mətbuat Şurasının sədr müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) sədri Umud Rəhimoğlu da Məhəmmədrza Nəcəfinin səlahiyyət müddətinin başa çatması ilə əlaqədar ona gələcək işlərində nailiyyətlər arzulayıb. O mövcud xüsusda hər iki ölkənin media strukturlarının birgə səylər göstərməsinin müstəsna əhəmiyyət daşıdığı önə çəkib.

SƏS Media Qrupunun rəhbəri Bəhruz Quliyev isə İran İslam Respublikasının ölkəmizdəki səfirliyinin yeni mətbuat katibi Seyid Ali Mousaviyə işlərində uğurlar arzu edib. Media Qrupunun rəhbəri bildirib ki, Məhəmmədrza Nəcəfinin səlahiyyət müddəti başa çatsa da o hər zaman Azərbaycan mətbuatı üçün doğma olub: "Siz biz tərəfdən dost kimi yola salınırsınız. Hər bir mətbuat rəhbəri, jurnalist sizi özünün dostu sayır. Biz yeni mətbuat xidmətinin rəhbəri Seyid Ali Mousaviyə isə xoş gəldin deyirik. Hesab edirəm ki, bu dostluğu davam etdirmək lazımdır. Çünki bizim orta tariximiz, mədəniyyətimiz və dostluğumuz var. Biz bunu istəsək belə dəyişə bilmərik. Bu gün iki dövlət arasında bütün sahələrdə çox yaxşı dostluq, əməkdaşlıq əlaqələri var".

Daha sonra "Paralel" qəzetinin baş redaktoru Tapdıq Abbas, Mətbuat Şurasının sədr müavini, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli, "Xalq cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli və digərləri çıxış edərək Məhəmmədrza Nəcəfiyə və yeni mətbuat xidmətinin rəhbərinə yeni-yeni yaradıcılıq uğurları arzulayıb. Sonda Mətbuat Şurasının sədri Əflatun Amaşov tərəfindən Məhəmmədrza Nəcəfiyə "Azərbaycan mediası ilə səmərəli əməkdaşlığa, İran və Azərbaycanın media qurumları arasında münasibətlərin inkişafındakı xidmətlərinə görə" diplomu və hədiyyə təqdim olunub.

# YAP Suraxanı rayon təşkilatının 25 illiyi təntənə ilə qeyd olundu

Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatının yaranmasının 25 illiyi ilə bağlı partiya təşkilatında yubiley tədbiri keçirilib.

Tədbirdə Milli Məclisin deputatları Eldar İbrahimov, Ağacan Əbiyev, Suraxanı rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov, YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, eləcə də, partiyanın ictimai-siyasi fəalları və gənclər iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, xatirəsini dərin ehtiramla yad etdilər. Daha sonra YAP Suraxanı rayon təşkilatının binasında davam edən tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, YAP Suraxanı rayon təşkilatının 25 illik fəaliyyətinin əsas aspektlərini özündə ehtiva edən qısametrajlı film nümayiş etdirilib.

Sonra Ulu Öndər Heydər Əliyevin və Yeni Azərbaycan Partiyasının yarandığı gündən bu günə qədər onun inkişafı üçün əlindən gələni edən dünyasını dəyişmiş siyasi həmfikirlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov geniş məruzə ilə çıxış edərək, Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olmasının, demokratik-hüquqi və dünyəvi dövlət quruculuğu prosesinin uğurla və sürətlə həyata keçirilməsinin dahi rəhbər Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirərək vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində gördüyü işlər, artıq Azərbaycanı inkişaf yoluna çıxarıb. "Ulu Öndərin bu istiqamətdə gördüyü əsas işlərdən biri də, məhz Yeni Azərbaycan Partiyasını yaratmaq idi", - deyə qeyd edən Vüqar Seyidov, həmçinin, bildirib ki, olduqca çətin dövrdə yaranan bu partiya, Ümummilli Liderin də dediyi kimi, dünənin, bu günün



və gələcəyin partiyası oldu.

YAP Suraxanı rayon təşkilatının yaranmasının 25 illiyini qürur hissi ilə qeyd edən partiya sədri vurğulayıb: "Bu gün YAP Suraxanı rayon təşkilatı digər rayon təşkilatları ilə bərabər Cənab Prezidentin və partiyanın İcra Katibliyinin tələb və təkliflərinə uyğun olaraq, fəaliyyətini uğurla davam etdirir. YAP Suraxanı rayon təşkilatında 110 ilk ərazi təşkilatı mövcuddur. Partiyanın 8469 nəfər üzvü var ki, onların 4365 nəfərini qadınlar, 3500 nəfərini isə gənclər təşkil edir".

Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, iqtisad elmləri doktoru Eldar İbrahimov YAP-la bağlı xatirələrini tədbir iştirakçıları ilə bölüşüb. O, YAP-ın olduqca gərgin ictimai-siyasi zamanda yarandığını qeyd edərək, ötən dövr ərzində, partiyanın Cənubi Qafqazın ən böyük siyasi təşkilatına çevrildiyini vurğulayıb: "Hamımız dərk edirdik ki, bu xaosdan, dövləti parçalanmaqdan yalnız Ulu Öndər xilas edə bilər. Əvvəlcə, Ulu Öndər bizim təklifimizlə razı olmasa da, ziyalıların təkidi ilə razılaşdırdıq. Ulu Öndərin ətrafında cəm olan bir qrup ziyalılar bildirdik ki, Siz əgər razı olmasanız Azərbaycan dağılacaq. Çünki hakimiyyətdə olanların idarəçiliklə bağlı heç bir səriştələri yoxdur. O zaman mərd, Vətən təəssübü çəkən ziyalılarımızla yanaşı, özünü düşünən, vəzifəsindən qorxan insanlar da oldu ki, imza atıb Ulu Öndərin Bakıya gəlməsinə tərəddüd etmişdilər. 91 nəfər ziyalının imzası ilə "Səs" qəzetinin 16 oktyabr tarixli sayında Ümummilli Liderə müraciət olundu ki, xalq Sizin yolunuzu gözləyir. O zaman poçt sistemi də yarıtmaz vəziyyətdə idi. Qəzetləri mən aparıb-gətirirdim. Partiyanın yaradılması ilə əlaqədar Ulu Öndərin İdarə Heyətinə tapşırığını və tövsiyələrini, mütəmadi olaraq, çatdırırdım. Deputat olduğum üçün də günüm deməк olar ki, təyyarələrdə keçirdi. 1992-ci il 21 noyabrda Ulu Öndər və İdarə Heyəti ilə birgə qərara almışdıq ki, partiyanın konfransı keçirilsin. Buna bir qədər qalmış 1992-ci ilin 24 oktyabrında cəbhəçilər Naxçıvanda, sözün əsl mənasında, dövlət çevrilişinə cəhd etdilər. Cəbhə hakimiyyəti, o cümlədən də, o vaxtkı daxili işlər naziri İsgəndər Həmidov Heydər Əliyevin ətrafında birləşən insanları təhdid edirdilər. Heydər Əliyev "91-lər"in müraciətinə cavab hazırlayarkən-24 oktyabr 1992-ci il tarixdə AXC Naxçıvanda dövlət çevrilişinə cəhd etdi. Daxili İşlər Nazirliyini, Naxçıvan Televiziyasını ələ keçirmişdilər ki, xalqa müraciət edib, sonra da Heydər Əliyevi devirsinlər. Bunların belə bir planları var idi. Düzdür, cəhdləri baş tutmadı. O zaman mən də Ulu Öndərin yanındaydım. Onun AXC-nin Naxçıvandakı sədri ilə bütün danışıqlarının şahidiyəm. Həmin vaxt naxçıvanlılar çox gərgin anlar yaşadılar. Naxçıvan əhalisi gecəsəhərə qədər yığışıb, Ali Sovetin binasında Ulu Öndəri qorudular. Ulu Öndər də hər zaman naxçıvanlıların bu fədakarlığını unutmadı. Çünki Ulu Öndərin yolunda heç kim canını əsirgəmədi. Beləliklə, 1992-ci il noyabrın 21-də 550 nəfər təəssübkeşin və Bakıdan gəlmiş 55 nəfərin iştirakı ilə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasını yaratdıq. O zaman hakimiyyətdə olan AXC-Müsavat cütlüyü özlərinə əsas rəqib Ulu Öndəri görürdü. Bütün cəhdlərlə Naxçıvana hücum çəkərək, Onu aradan götürmək istəyirdilər. Hər dəfə də cəhdləri boşa çıxırdı. İstəklərinə nail ola bilmədilər".

Partiya veteranı, təqaüdçü Sonaxanım Əliağaqızı YAP-ın yaranmasını və tez bir zamanda xalqımızın iradəsi ilə siyasi hakimiyyətə gəlişini müasir tariximizin ən mühüm ictimai-siyasi hadisələrindən biri kimi dəyərləndirib və bu münasibətlə tədbir iştirakçılarını təbrik edib. Suraxanı rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov YAP-ın yarandığı mürəkkəb tarixi-siyasi şəraitdən, keçdiyi çətin və şərəfli mübarizə yolundan, Ulu Öndər Heydər Əliyevin xalqın və dövlətin qarşısında göstərdiyi böyük xidmətlərdən danışaraq, bildirib ki, bu gün bu siyasətin Azərbaycanın Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi nəticəsində, sürətlə inkişaf edən Azərbaycan uğurlu nailiyyətlər qazanır. Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının sıralarına yeni daxil olan üzvlərə partiya biletləri təqdim olunub. Eyni zamanda, YAP Suraxanı rayon təşkilatının bir qrup partiya veteranı təltif ediliblər.

Təbir YAP Suraxanı rayon təşkilatının 25 illik yubileyinə həsr olunmuş bədii hissə ilə yekunlaşdırılıb.

***Rövşən NURƏDDİNOĞLU***

## "Nar"dan "Bilik günü" münasibətilə müsabiqə

"Nar" 15 sentyabr - "Bilik günü" münasibətilə daha bir müsabiqə keçirir. "Nar" abunəçiləri internet üzərindən keçirilən "Məktəb illərini yada sal" müsabiqəsində iştirak etməklə, həm öz biliklərini sınaya, həm də qalib gələrək internet bonusları və hədiyyələr qazana bilərlər. Müsabiqə sentyabrın 14-də saat 18:00-da başlayıb və sentyabrın 16-da saat 23:59-da yekunlaşacaq. "Nar"ın sosial şəbəkə hesablarında keçirilən müsabiqəsində digər mobil operatorların abunəçiləri də iştirak edə bilər. "Nar" abunəçisi müsabiqənin qalibi olduğu təqdirdə, 100 meqabayt qazanacaq. Maksimum nəticə göstərən ilk 20 nəfərə isə mobil operator tərəfindən əlavə olaraq xüsusi hədiyyələr veriləcək. Nəticələr sentyabrın 17-də elan olunacaq və iştirakçılara elə həmin gün SMS göndəriləcək. Müsabiqədə bu keçid vasitəsilə iştirak etmək olar: https://www.nar.az/mekteb-illeri.html




"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 2007-ci il martın 21-də fəaliyyətə başlayaraq, qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93 faizini əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

## "İlin sonuna Azərbaycanda 10-cu milli park yaradılacaq"

Azərbaycanda bioloji müxtəlifliyin qorunması üçün bir sıra xüsusi tədbirlər həyata keçirilir. Ölkədə xüsusi mühafizə olunan təbiət ərazilərinin genişləndirilməsi istiqamətində vacib tədbirlər görülür. Bu fikirləri açıqlamasında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Qorunması və Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin İnkişafı Departamentinin direktoru Hikmət Əlizadə söyləyib.



O deyib ki, Azərbaycanda hazırda 9 milli park, 11 dövlət təbiət qoruğu və 24 yasaqlıq fəaliyyət göstərir. 2018-ci ilin sonuna qədər isə 10-cu milli park yaradılacaq. Artıq sənədləşmə işləri yekunlaşıb və hökumət qərarı gözlənilir. Yeni milli park Azərbaycanın cənubunda yerləşən Qızılağac Dövlət Təbiət Qoruğunun bazasında yaradılacaq. Bu, çox vacib ekosistemdir və 100 min hektar sahəni əhatə etməklə Azərbaycanın ən böyük dənizkənarı milli parkı olacaq. Ərazisinin böyüklüyünə görə, bu, Azərbaycanda ikinci ən böyük milli park olacaq. Birinci yerdə isə Şahdağ Milli Parkıdır - 130 min hektar. Nazirlik rəsmisi, həmçinin qeyd edib ki, Azərbaycanda ilk biosfer qoruğunun Zaqatala-Balakən zonasında yaradılması işləri də aparılır. Bu işlərdə Almaniya İnkişaf Bankı Azərbaycana maliyyə dəstəyi göstərəcək. Sənədləşmə işləri bitib, layihənin icrasına başlanılacaq və 4 ilə bitəcək.





# 15 sentyabr tariximizin ən şanlı səhifələrindəndir

Xalqımız və bütün ölkə ictimaiyyəti üçün 15 sentyabr, həqiqətən də, qürurverici, həm də Türkiyə-Azərbaycan qardaşlığının bariz nümunəsi kimi əlamətdardır. Bu il sentyabrın 15-də Qafqaz İslam Ordusu tərəfindən Bakının daşnak-bolşevik qüvvələrindən azad edilməsinin 100 illik yubileyinin dövlət səviyyəsində geniş qeyd olunması diqqət mərkəzindədir. Keçirilən parad Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubiley tədbirləri çərçivəsində, Bakının 1918-cı il sentyabrın 15-də blşevik-daşnak silahlı birləşmələrindən azad edilməsinin 100 illiyi münasibətilədir.

Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və digər qurumların müvafiq strukturlarının şəxsi heyətinin və minik vasitələrinin cəlb edildiyi, iştirakçıların Azadlıq Meydanı və Dənizkənarı Bulvar ərazisindən hərbi geyimlərdə, süvari və piyada ordu şəklində keçidi, ümumiyyətlə, paradın hazırlıq məşqlərini paytaxt sakinləri maraqla izləyiblər. Hazırlıq mərhələləri turistlərin də marağına səbəb olub. Geyimləri belə Azərbaycan və Osmanlı Ordusunun 100 il əvvələ aid hərbi geyimlərinə uyğunlaşdırılan parad iştirakçılarının sentyabrın 15-də Azərbaycan və Türkiyə bayraqlarının öndərliyi ilə Bakının küçələrindən keçmələrinə isə marağın sözsüz ki, daha böyük olacağı gözlənilir.

## Ermənilərin Azərbaycanda müsəlmanlara qarşı soyqırımları Osmanlı dövlətini bir an gecikmədən hərbi yardıma keçməyə sövq edir

Qafqaz İslam Ordusunun fəaliyyət hərəkatı Azərbaycanın istiqlal tarixində və bunun kimi də milli müqəddəratının həllində mühüm rolu olan bir hadisədir. Bir tərəfdən I Dünya müharibəsinin başlanması, həmçinin, Rusiyadakı hakimiyyət çevrilişlərinin Qafqazda, o cümlədən, Azərbaycanda öz dərin təsirini göstərməsi, digər tərəfdən Osmanlı - Rusiya qoşunlarının üz-üzə dayandıqları Qafqaz cəbhəsinin çox yaxında olması Azərbaycandan istər Osmanlı türk cəbhəsi komandanlığına, istərsə də dövlətə müraciətləri labüd edirdi. Ermənilərin müsəlmanlara qarşı, Azərbaycanın paytaxtı Bakıda, ardınca digər bölgələrdə başladığı soyqırımlar Osmanlı dövlətini, nəhayət, qardaş xalqlara bir an gecikmədən hərbi yardıma keçməyə sövq edir.

Məlumdur ki, 1918-ci il sentyabr ayının 15-də Azərbaycan Əlahiddə Korpusu Qafqaz İslam Ordusu ilə birlikdə qanlı döyüşlər apararaq, Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas edib. Azərbaycan əsgər və zabitləri türklərlə birlikdə Bakının düşməndən təmizlənməsində şərəflə döyüşüb. Azərbaycan, eyni zamanda, türk əsgər və zabitlərinin igidliyi nəticəsində, qısa müddətdə Bakı, əsasən, ermənilərdən ibarət olan daşnak-bolşevik qüvvələrindən azad olunub. Məhz bu şərəfli tarixin 100 illik ildönümünün keçirilməsinin, Türkiyə-Azərbaycan qardaşlığının tərənnüm edilməsinin əhəmiyyəti böyükdür.

## Bolşevik-daşnak qüvvələrinin törətdikləri türkün qan yaddaşından silinən deyil

Leninin direktiv göstərişlərini həyata keçirən Stepan Şaumyanın 1918-ci ilin mart-iyul aylarında Bakı Sovetinə tabe olan daşnak silahlı dəstələrindən və bolşevik hərbi birliklərindən istifadə edərək Azərbaycanın Bakı, Şamaxı, Quba və başqa qəzalarında qırğınlar törətməsi, yüzlərlə yaşayış məskənini dağıdıb, dinc insanları amansızcasına qətlə yetirməsi artıq dünya ictimaiyyəti üçün sirr deyil. Bakı Sovetinin ixtiyarında olan, mütləq əksəriyyəti ermənilərdən ibarət hərbi birləşmələrin iyunun Azərbaycan ərazilərini işğal etməsi, kütləvi qırğınlar törətməsi, qanlı döyüşlər bizim qan yaddaşımızdan silinməzdir. Bu soyqırımı siyasəti, erməni xislətindən doğan vandallıq hadisələri, vəhşilik və amansızlıqla müşayiət olunan türk milli mənsubiyyətinə malik olanların kütləvi qətlləri, ümumilikdə, türkün qan yaddaşından silinən deyil və düşmən üzərində qələbə tariximizin ən şanlı səhifələrindəndir.

Həmin dövrdə düşmən qüvvələrin qarşısının alınması üçün Azərbaycan nümayəndələrinin öz hərbi gücünü artırmaq niyyəti, kömək məqsədi ilə Türkiyə, o zamankı Osmanlı dövlətinə müraciət etmələri, bu müraciətə müsbət cavab olaraq qardaş Türkiyə dövlətinin yeni yaradılmış Qafqaz İslam Ordusunu 1918-ci ilin may ayında Azərbaycan ərazisinə köməyə göndərməsi də Türkiyə-Azərbaycan qardaşlığının bariz nümunəsidir. General Əliağa Şıxlinskinin başçılıq etdiyi müsəlman milli korpusu ilə birləşən, Nuru Paşanın rəhbərlik etdiyi həmin ordunun 1918-ci il iyunun əvvəllərində, artıq 15 min əsgər və zabiti vardı və bu ordu qardaşlıq müstəvisində ümumi düşmənin darmadağın edilməsinə xidmət edirdi.

## Qafqaz-İslam Ordusunun Göyçay ətrafındakı qələbəsi hadisələrin gedişini dəyişdi və bolşevik-daşnak işğalından qurtarmaq üçün ilk zəmin yaratdı

Daşnak-bolşevik qüvvələrinin Azərbaycan ərazilərinin bir hissəsini işğal edərək, artıq Göyçaya qədər gəlib çatması çox böyük bir həyəcan təbili çalırdı. Azərbaycanın işğala məruz qaldığı bir məqamda Qafqaz İslam Ordusu hissələri Azərbaycana yetişir. Qafqaz İslam Ordusunun Göyçay ətrafındakı qələbəsi isə hadisələrin gedişini tamamilə milli hökumətin xeyrinə dəyişdi, Azərbaycanın şərq hissəsi, o cümlədən, Bakının bolşevik-daşnak işğalından azad edilməsi üçün ilk zəmin yaratdı. Bolşevik-daşnak birləşmələrini darmadağın edən Qafqaz İslam Ordusunun Bakı istiqamətində başlatdığı azadlıq yürüşündə növbəti şanlı qələbə iyul ayının 20-də mühüm strateji məntəqə olan Şamaxı şəhərinin azad edilməsi oldu.

Qafqaz İslam Ordusu qüvvələrinin Bakı ətrafında ciddi müqavimətə rast gəlməməsi və milli qüvvələrin Bakıya sürətlə yaxınlaşması şəhərin tezliklə süqut edəcəyinə bir inam yaradırdı. Döyüşlərdə yersiz itkilərə yol verməmək üçün iyulun 31-də Qafqaz İslam Ordusu adından Bakıya göndərilən nümayəndə heyəti şəhərin təslim ediləcəyi təqdirdə, ermənilərin oradan istədikləri yerə çıxıb getmələri üçün şərait yaradacaqlarına təminat verirdi. Ancaq Bakıdakı ermənilər və onların ətrafında toplaşanlar bütün ümidlərini ingilis qoşunlarının Bakıya gəlişinə bağlayır və vəziyyətin onların xeyrinə tamamilə dəyişəcəyinə ümid edirdilər deyə bununla razılaşmadılar və nəticə, bunu deməyə əsas verir ki, budəfəki qırğınların da baiskarı özləri hesab olunur.

## Bakının azad edilməsini Türkiyə də Azərbaycan qədər səbirsizliklə gözləyirdi

Türkiyə-Azərbaycan qardaşlığını, dini, mənəvi və tarixi bağlılığı təsdiq edən təkcə döyüş səhnələri deyil. O zaman Qafqaz İslam Ordusu döyüşçüləri arasında yayılmış, Türk əsgərinə ünvanlanmış bir müraciətnamənin məzmunu da bu bağlılığa layiqli sübutdur. Müraciətnamədə deyilirdi: "Türk ordusuna! Əgər siz bu sərvət və altun şəhərini zəbt etməsəniz, sevgili vətənimizə ən qiymətli bir hədiyyə etmək fürsətini qaçırmış olacaqsınız. Əgər siz yaşıl dənizin bu məşhur şəhərini zəbt etməsəniz, Qafqaz türkləri və Türküstan müsəlmanlarının qəlbinə saplanmış olacaq zəhri-xəncərin üzərinə: "Eyvah ki, türk bizə imdada gəlmədi" cümləsi yazılmış olacaqdır. Qafqaz fəryad edəcək, Türküstan ağlayacaqdır... Ey türk əsgəri! Əgər sən bu şəhəri almasan, Bakıda sənin üçün hazırlanan süfrələr müsafirsiz qalacaq, sənin üçün tikilən əlbisəni düşmən geyəcəkdir. Sənin ayağına kəsiləcək qurbanlar düşmənə qalacaqdır. Əgər sən bu şəhəri almasan, islam gəlinlərinin duvaqlarını kafirlər yırtacaq, mübarək islam qanı qırmızı şərab kimi axacaqdır. Sənin zəfərin üçün duaya qalxan əlləri zalımlar kəsəcəkdir. Əgər sən bu sarı işıqlı altun şəhəri almasan, qadınlar saçlarını yolacaq, ağıllarını itirəcəklər. İndiyə qədər axan qanlar boş yerə axmış olacaq. Fəqət sən, ey türk əsgəri, ingilislərin gücünü kəndi zorunla Çanaqqalada qırdın. Ən böyük hərb gəmilərinin böyük güllələrinə aylarca doğuş gərdin. Kutulamaredə 14 minini əsir aldın. Türk adını böyüdən Çanaqqala, Kutulamare, Qalisiya, Rumıniyadan sonra Qafqaz gələcək və Bakı şəhəri də igidlik tacının bir almazı olacaqdır. Al Bakını! Vətəninə bir altun ərməğan apar!"

Bakını əldə saxlamaq üçün müxtəlif qüvvələrdən kömək uman daşnak və bolşeviklər buna nail ola bilmədilər. Qafqaz İslam Ordusunun avqustun 5-dən Bakı üzərinə intensiv hücumları qarşısında dayana bilməyən bolşevik-daşnak birləşmələri geri çəkilirdi. 1918-ci ilin sentyabrında yaranmış beynəlxalq vəziyyət Bakının tezliklə azad olunmasını zəruri edirdi. Bakının, nəyin bahasına olursa-olsun, azad olunması üçün ardıcıl iş aparılırdı. Güclü müqavimətə baxmayaraq, Qafqaz İslam Ordusu sentyabrın 15-də dörd mindən artıq əsgər və zabit şəhid vermək bahasına da olsa, Bakını düşmənlərdən azad etdi.

Azərbaycan xalqı Bakının azad edilməsini və bu şəhərin müstəqil Azərbaycan dövlətinin paytaxtına çevrilməsini səbirsizliklə gözləyirdi. Bakının azad edilməsi Azərbaycan xalqının ölüm-dirim məsələsi idi. İstanbulda olan M.Ə.Rəsulzadə xarici işlər naziri M.Hacınskiyə göndərdiyi məktubunda yazırdı: "Hansı yolla, nəyin bahasına olursa-olsun, Bakı tezliklə tutulmalıdır. Əks təqdirdə, baş vermiş fakt qarşısında çətin vəziyyətdə qalarıq. Əgər Bakı alınmasa, hər şey bitdi. Əlvida, Azərbaycan!"

Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun və Azərbaycan Korpusunun Bakını erməni-bolşevik işğalından azad etməsindən 100 il ötür və həmin gün Azərbaycan xalqının tarixində böyük dəyərə malik səhifə kimi əbədiləşib və daim xatırlanır. Bu şərəfli tarixi günü qeyd etdiyimiz zaman hər birimizin qəlbində Azərbaycan əsgərinin eyni sevinci, eyni fərəhi bizə yaşatması, Qarabağı erməni işğalından azad etməsi arzusu baş qaldırır. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında yaradılmış güclü ordumuzun buna nail olacağına da inanırıq. Müasir Azərbaycan Ordusunun düşmən işğalındakı ərazilərimizi azad edəcəyinə, ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyinə zərrə qədər şübhə ola bilməz. Ordumuz buna qadirdir və hər an düşməni məğlub etmək əzmindədir. İstər 2016-cı ilin aprel döyüşləri, istərsə də Naxçıvanda əldə edilən qələbələr Ordumuzun gücünü və döyüş əzmini göstərir və düşmən üzərində qələbəyə zərrə qədər şübhə yeri qoymur.

*İnam İMRANOĞLU*

# Paşinyanın növbəti sərsəmləmələri

## *Məqsəd erməniləri eyforiyada saxlamaqdır*




***Ermənistanda hökm sürən xaos və anarxiya son günlər daha da dərinləşəkdədir. Xüsusilə, küçə "demokratı" Nikol Paşinyanın 4 ay hakimiyyətdə olduğu müddətində, ölkədə həm iqtisadi, həm də siyasi durum getdikcə ağırlaşmaqdadır. Ermənistanda Təhlükəsizlik Xidmətinin direktoru Artur Vanetsyan ilə Xüsusi İstintaq Xidmətinin rəisi Sasun Xaçatryan, telefon danışığının səs yazısı ölkə ictimaiyyətinin sərt reaksiyasına səbəb olub. Belə ki, bu telefon danışığında Paşinyanın yalanları, ifşaları, qorxaqlığı ilə bağlı faktlar, bir daha sübut edir ki, Ermənistandakı həbslər siyasi maraq daşıyır.***

İstər siyasi, istərsə də xarici siyasətdən xəbərsiz olan Paşinyan Rusiyaya səfəri zamanı Vladimir Putinin ona qarşı soyuqluğu psixoloji durumu problemli olan küçə "demokratı"nın əsəblərini tarıma çəkib. Məhz belə bir xislət sahibi olan Nikol Paşinyanın Rusiyaya səfərindən sonra tez-tez Azərbaycana qarşı fikirlər səsləndirməsi bir daha təsadüfən hakimiyyətə gəlmiş küçə adamı olduğunu sübut edir. Eyni zamanda, bu adam siyasi məsuliyyətin nə olduğunu, danışıqların hansı formada getdiyini, indi hansı situasiyanın mövcud olduğunu başa düşmür.

### Paşinyan sərsəm fikirlərlə özünü sığortalamaq istəyir

Politoldoq Qabil Hüseynli Paşinyanın sərsəm fikirləri təkrar etməsini baş nazirin Azərbaycana münasibətdə şantaj ritorikasını artırdığını söyləyib. Onun sözlərinə görə, Paşinyan siyasi məsuliyyətə uyğun olmayan davranışlar nümayiş etdirməkdədir: "Paşinyan sonuncu dəfə Qarabağa gələndə, bildirdi ki, Ermənistan müdafiəyə və lazım olarsa, hücuma da hazır olmalıdır. O, məsuliyyətini dərk etməyən, Qafqazı barıt çəlləyi kimi güman edən bir adamdır. Paşinyan Ermənistan xalqının eyforiyasından istifadə edərək, radikal çağırışlar edir. Moskvadan qayıtdıqdan sonra onun işğal edilən Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı səsləndirdiyi fikirlər diplomatik təfəkkürə uyğun gəlməyən və küçədən gəlmiş adamın bəyanatına oxşayır".

Q.Hüseynli Paşinyanın siyasət deyilən faktordan tamam uzaq olduğunu da vurğulayıb: "Paşinyan sanki Azərbaycan Silahlı Qüvvələrinin hansı gücdə olduğunu da görmür. O, yenə də Rusiyanın Azərbaycan ərazilərini ələ keçirib Ermənistan adlı ölkə qurduğu dönəmdə ermənilərin qapıldığı eyforik vəziyyətə düşüb, bu ölkəni yeni torpaqların işğalına səsləyir. Bu, qaragüruh və bölgəni daha ciddi təhlükəyə sürükləyərək davranışdır. Ermənistan "cırtdan" dövlət olsa da, o, bu ölkənin başçısıdır və buna görə də sözünü ölçüb-biçib deməlidir. Paşinyan isə sağa-sola baxmadan, ağzına gələni deməklə, erməniləri eyforiyada saxlamağa çalışır".

Politoloq Paşinyanın söylədiyi sərsəm bəyanatlarının qarşısında Azərbaycan kimi güclü dövlətin olduğunu bilə-bilə özünü sığortalamaq istədiyini bildirib: "Belə bir ifadə var, ermənilərin qanı coşanda onlardan qan almaq lazımdır ki, hədəqədən çıxmasınlar. Paşinyan hakimiyyətə demokrat qismində gəlsə də, qaragüruh, şovinist çıxışlar edir, Azərbaycana da təhdidlər və şantajlar yağdırır. Bu, xəstə təfəkkürün məhsuludur və onu göstərir ki, Paşinyan danışıqlara hazır deyil. Əksinə, o, işğal edilmiş Azərbaycan ərazilərinin mənimsənilməsi xülyası ilə yaşayır. Ola bilsin ki, hansısa dövlətlərin verdikləri mesajların hesabına bunu öz xalqına təlqin etməyə çalışır. Azərbaycan isə sonadək döyüşəcək və öz torpaqlarını işğaldan azad edəcək."

### Paşinyan siyasəti: bir addım irəli, iki addım geri

Dayaz siyasətə malik olan Paşinyanın avantürist xisləti hər an görünür. Belə ki, Paşinyanın Moskvada Qarabağı Ermənistanın bir hissəsi hesab etməsi kimi sərsəm fikirləri deyilənlərin məntiqi sübutudur. Bu, işğalçı dövlətin ən kobud və demək olar ki, düzəlməsi mümkün olmayan nə birinci, nə də sonuncu səhvi deyil. Paşinyan isə sadəcə, kimsəyə xeyri dəyməyən boş-boş vədlər və açıqlamalar verməklə məşğuldur. Bir addım atır, sonra iki addım geriyə çəkilir. Koçaryanla, Xaçaturovla bağlı məsələni xatırlamaq kifayətdir ki, bu adamda prinsipiallıq, dediyinin, atdığı addımların üzərində möhkəm dayanmaq iradəsinin olmaması üzə çıxsın. Düşdüyü vəziyyətdən çıxmaq üçün "Qarabağ kartı"ndan istifadə etməyə, ermənilərin millətçilik-şovinistlik damarından yapışmağa çalışır. Bu gün Paşinyanın çıxışlarına diqqət yetirsək, görərik ki, baş nazirin çıxışlarının əsas tezislərini "Qarabağ klanı"nın aparıcı simalarının, o cümlədən, Robert Koçaryan və Serj Sarkisyanın hakimiyyəti dövründə ölkəni bürüyən korrupsiya, rüşvətxorluq, ağır kriminal vəziyyət və əhalinin sosial-iqtisadi problemləri təşkil edir. Ermənistanın baş naziri bununla kütlə önündə özünə müəyyən üstünlük qazanmaq istəyir. Ancaq müstəqil siyasət yürüdə bilməyən Paşinyan Rusiya tərəfindən daha çox soyuqluqla üzləşir. Xüsusilə də, ATƏT-in baş katibi Tomas Qremingerin Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesindəki hazırkı vəziyyətlə bağlı fikirləri, eyni zamanda, bu kontekstdə Ermənistanın yeni rəhbərliyinin söylədiyi qeyri-konstruktiv mövqeyə görə iradlarını səsləndirməsi, görünür, Paşinyanın durumunu daha da çətinləşdirəcək.

### ATƏT Paşinyanın mövqeyini qeyri-konstruktiv sayır

Prezident İlham Əliyevin ATƏT-in baş katibi Tomas Qremingerlə görüşü zamanı da Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesindəki hazırkı vəziyyətlə bağlı fikirlərini bildirib, bu kontekstdə Ermənistanın yeni rəhbərliyinin sərgilədiyi qeyri-konstruktiv mövqeyə görə iradlarını səsləndirib.

T.Qremingeri Bakıda qəbul edən respublikamızın dövlət başçısı Nikol Paşinyanın Ermənistanda hakimiyyətə gəldiyi ilk günlərdən həm daxili və həm də xarici siyasətdə ortaya qoyduğu yarıtmaz fəaliyyətinin region üçün doğura biləcəyi acı nəticələrlə bağlı ətraflı şəkildə qonağa məlumat verib, işğalçı ölkə rəhbərliyi və münaqişə ilə məşğul olan dövlətlərə, o cümlədən, ATƏT-in Minsk Qrupunun həmsədrlərinə xəbərdarlıq xarakterli mesajlarını çatdırıb.

Azərbaycan Prezident İlham Əliyev qeyd edib ki, Ermənistanın yeni baş nazirinin fəaliyyətə başladığı ilk günlərdən münaqişənin həlli ilə əlaqədar verdiyi ziddiyyətli bəyanatlar, ən azı, təəccüb doğurur: "Xüsusilə, "Azərbaycan qondarma "Dağlıq Qarabağ Respublikası" ilə danışıqlar aparmalıdır" tezisi qəbuledilməzdir. Bu, onu göstərir ki, Ermənistan rəhbərliyi danışıqları pozmaq istəyir. Azərbaycanın işğal edilmiş rayonlarının guya qondarma "Dağlıq Qarabağ Respublikası"nın tərkib hissəsi olması kimi bəyanatları da Azərbaycan qətiyyətlə rədd edir və Azərbaycan ATƏT-i bu təhlükəli bəyanatlara reaksiya verməyə çağırır. Ümumiyyətlə, Azərbaycan tərəfində, belə bir qənaət yaranıb ki, Paşinyan hər vasitə ilə danışıqlar prosesini pozmağa çalışır. Belə olan təqdirdə, bunun bütün məsuliyyəti Ermənistan tərəfinin və şəxsən Paşinyanın üzərinə düşəcək".

Beləliklə, yenidən Azərbaycana qarşı təhdidlə çıxış etməsi Paşinyanın səviyyəsizliyini və dövlət rəhbəri kimi məsuliyyətin nədən ibarət olduğunu təsdiqləyir.

**A.SƏMƏDOVA**




# Hayk Alunyan: "Koçaryanın vəkillərinin ən pessimist gözləntiləri baş verdi"

Ermənistanın ikinci prezidenti Robert Koçaryanın vəkilləri ölkənin milli təhlükəsizlik xidməti və xüsusi istintaq idarəsinin rəhbərləri arasındakı telefon danışığının, eləcə də, həmin danışığın audioyazı ilə bağlı baş nazir Nikol Paşinyanın bəyanatının ardınca, belə qənaətə gəliblər ki, onların müvəkkilinə - Robert Koçaryana qarşı qanunsuzluq və təqiblər həyata keçirilir. Bu barədə "aysor.am" informasiya portalı Koçaryanın vəkili Hayk Alunyana istinadən məlumat yayıb. Alunyan deyib ki, MTX-nin direktoru və XİI-nin rəisi arasındakı danışıqlardan da bəlli olur ki, hakim öz hərəkətlərini MTX direktoru ilə məsləhətləşib, sonuncusu isə hakimə qarşı kifayət qədər həssas yanaşıb.

### Vəkillər: "Belə insanların müdafiəsini edənlər təxribatçı adlandırılırlar"

Koçaryanın vəkilləri bundan əlavə, qeyd ediblər ki, müvəkkillərinin həbs prosesi Avropa Konvensiyasının insan hüquqlarının azadlığının qorunması Konvensiyasına əks olaraq, presedentsiz qanunauyğunsuzluqlarla müşahidə edilib. "Robert Koçaryanın vəkillərinin ən pessimist gözləntiləri baş verdi", deyə qeyd edən Alunyan qeyd edib: "Artıq ictimaiyyətdə belə bir fikir formalaşdırılır - elə insanlar var ki, onların hüquqlarını pozmaq mümkündür. Belə insanların müdafiəsini edənlər isə təxribatçı adlandırılırlar".

Vəkillərin müraciətlərini təqdim edərkən, Alunyan deyib ki, Koçaryanın müdafiəsini üzərlərinə götürən şəxslərə "qara adam" kimi yanaşırlar və onlara münasibətdə dözümsüzlük atmosferi formalaşdırılır.

Vəkillər, eyni zamanda, deyiblər ki, ali məhkəmə şurası hakimlərin müstəqilliklərinin apogey həddində pozulmasına baxmayaraq, onların müdafiəsinə qalxmır.

"Eyni zamanda, hüquq-müdafiə təşkilatlarının ölü sükutları bizi narahat edir. Sanki belə bir təəssürat yaranır ki, insan haqlarının qorunması şəxsi müstəvidədir, ümumi olaraq, ictimai xarakterdə deyil", - deyə Koçaryanın vəkili bildirib. Onlar, həmçinin, bildiriblər ki, bütün dövlət orqanları baş verənlərə hüquqi qiymət verməlidirlər.

**Rövşən RƏSULOV**

# "Paşinyan avantürlara meyilli bir şəxsdir"



"Ermənistanın yeni baş nazirinin fəaliyyətə başladığı ilk günlərdən Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı bəyanatları ziddiyyətlidir". Bunu SİA-ya açıqlamasında millət vəkili, politoloq Rasim Musabəyov deyib. Onun sözlərinə görə, Paşinyan avantürlara meyilli bir şəxsdir: "Belə olan halda ondan hansısa məntiqli söz gözləmək yersizdir. Ona görə də bu bəyanatlar əslində Ermənistanı uçuruma aparır".

Politoloq deyib ki, ABŞ prezidenti Donald Trampla Ermənistanın baş naziri Nikol Paşinyanın sentyabrda görüşü baş tutmayacaq: "Əslində Paşinyan BMT-yə səfəri zamanı istəyirdi ki, Trampla görüşsün. Tramp isə onunla görüşdən imtina etdi. Paşinyanın Fransaya səfəri isə orada erməni lobbiçilərinin olması ilə bağlıdır. Beləcə, onların orada görüş təşkil etmək imkanları var". Deputat son olaraq Paşinyanın Ermənistanda "İldırım 2018" təlimləri çərçivəsində ordunu savaşa hazırlamasına da münasibət bildirib: "Düşünmürəm ki, bu, reallaşsın. Onlar Azərbaycana gəlib hansısa təzyiq etmək imkanında deyillər. Hətta onlar heç özlərini Rusiyanın gücü olmadan müdafiə etmək iqtidarında deyillər".

# Əli Kərimliyə siyasətdən getmək təklifi olunub

## *“Milli Şura”nın buraxılması qərarından sonra Cəmil Həsənlinin də siyasətə “əlvida” deyəcəyi proqnozlaşdırılır*

***Siyasi arenada diqqətçəkən maraqlı olaylardan biri də müxalifət partiyalararası qarşıdurmalara siyasiləşmiş QHT-lərin də qoşulmasıdır. Artıq Emil Milli, Xədicə İsmayıl, Arif və Leyla Yunuslar və digər xarici maraqlı dairələrin “işvərəni” funksiyasını yerinə yertirməklə maliyyə yardımları alanlar müxalifət partiyalarına hərəsi bir formada dəstək verməyə çalışırlar. Əgər Leyla Yunus Müsavata dəstək verirsə, Emin Hüseynov AXCP ilə eyni maraqları bölüşdüyünü nümayiş etdirir. Ancaq məsələ burasındadır ki, E.Milli Ə.Kərimlini hədəfə alaraq, onu qorxaqlıqda və müxalifətin maraqlarına zərbə vurmaqda günahlandırır.***



Hətta E.Milli Vaşinqtonda keçirilən tədbirdə Ə.Kərimlinin maliyyə dəstəkçisi rolunda çıxış edən Qərbdəki dostlarını ittiham edib, onların sözü və əməli fərqli olan, müxalifəti parçalamaq siyasəti aparan Ə.Kərimlini mənasız yerə himayə etməkdə günahlandırıb. Artıq gərginləşməkdə olan qarşıdurmalar sosial şəbəkələrə yol açıb. Sosial şəbəkələr AXCP, Müsavat və siyasiləşmiş QHT rəhbərləri üçün sanki ürəklərini boşaltmaq üçün meydana çevrilib. Vəziyyətin bu formada davam edəcəyi halda, müxalifət düşərgəsində təmsil olunan partiyalardan növbəti qopmaların, parçalanmaların baş verməsi qaçılmaz olacaq. Baxmayaraq ki, müxalifətə maddi və mənəvi dəstək göstərən xarici qüvvələr, o cümlədən, Soros fondu müxalifəti böhranlı durumdan xilas etməyə cəhdlər göstərir. Ancaq əvvəlki təcrübəyə və bugünkü duruma əsasən, demək olar ki, müxalifətə göstərilən yardım nəticəsiz qalacaq. Dəfələrlə müxalifət düşərgəsində bir-birinin ardınca yaradılan blok və qurumların niyə qısaömürlü olmasını araşdırmağa da ehtiyac yoxdur. Ən azı, ona görə ki, düşərgə təmsilçilərinin dağıdıcı xarakterə, böyük iddialara malik olmasını bilənlər blok və qurumların az müddət sonra dağılmasının heç də təsadüfi olmadığını başa düşürlər.

### Müxalif partiya sədrləri indi də qatı cinayətkarlarla iş birliyi qururlar

Bu arada dağıdıcı müxalif partiya sədrləri böhranlı vəziyyətdən çıxış yolunu qatı cinayət törədərək, azadlıqdan məhrum edilən şəxslərə kömək əllərini uzadıblar. Hətta onların bəzilərini hazırladıqları qondama “siyasi məhbus” siyahılarına da salıblar. Vəhdət partiyasının sədri, millət vəkili Tahir Kərimli “Səs”ə açıqlamasında səs-küylü cinayətlərdə adları hallanan şəxslərlə müxalifət arasında əməkdaşlığın yaranmasında xarici qüvvələrin rolu olduğunu bildirdi: “Müxaliflər xarici dövlətlərin Bakıdakı səfirliklərindən təlimatlar alaraq, açıqca görüşlər keçirdilər. Fakt budur ki, müxalifət partiyalarının xarici qüvvələrlə əlaqələri var. Yəni Azərbaycan dövlətinin uğurlarına kölgə salmaq istəyən xarici qüvvələr ölkə müxalifətindən öz məkrli niyyətlərinin həyata keçməsi üçün bir vasitə kimi istifadə edirlər. Nə vaxt müxalifət bir araya gəlirsə, deməli, bu, xarici qüvvələrin onlara verdiyi tapşırıqdan irəli gəlir”.

T.Kərimlinin sözlərinə görə, müxalifət düşərgəsində fəaliyyət göstərən partiyalara rəhbərlik edən şəxslərin bir-birinə olan nifrəti, paxıllıqları, şəxsi ambisiyaları, birinin digərindən üstün olmaq kimi istəkləri müxalifət partiyalarını dağılmaq təhlükəsi ilə üzləşdirib: “Bu baxımdan, demək olar ki, müxalifətin acınacaqlı vəziyyətlə üzləşməsinin əsas səbəbkarları, məhz bu partiyalara rəhbərlik edən şəxslərdir. Yəni elə günahkar partiya sədrləridir. Əgər müxalifəti xalq müdafiə etmirsə, o, irəliyə doğru gedə bilmirsə, onda bu sədrlər partiyaları tərk etməlidirlər. Bu, müxalifətin sonu olmalıdır”.

### “Heç zaman müxalif partiyaları arasında birlik olmayıb”

Millət vəkili Tahir Kərimlinin də qeyd etdiyi kimi, heç zaman müxalif partiyalararasında birlik olmayab. Yaradılan blok və qurumlar ümumi müxalifətin birliyini yaratmaq kimi təqdim edilsə də, sonradan blokun dağılması ilə iddiaların əsassız olduğu təsdiqləndi. “Milli Şura” yaradılarkən, coxları bunu Müsavatla AXCP-nin birliyi kimi təqdim etməyə çalışırdı. Hətta təqdim etməyə cəhdlər göstərilirdi ki, Ə.Kərimli ilə İ.Qəmbər illərin mehriban düşmənləri olsalar da, bu məsələdə birləşmək məcburiyyətində qaldılar. Daha doğrusu, buna məcbur edildilər. Məlumatlar təsdiq edir ki, SOROS fondu, onun rəhbəri Corc Soros Gürcüstan ssenarisini Azərbaycanda tətbiq etmək üçün dağıdıcı müxalifətdən istifadə etməyi planlaşdırıb. Bu məqsədlə də, ayırdığı maliyyə vəsaiti hesabına müxalifətin didişən, ancaq əsas qüvvələri olan Ə.Kərimli - İ.Qəmbər birliyi vasitəsi ilə “Milli Şura”nın yaradılması göstərişini verib. Rüstəm İbrahimbəyov isə, sadəcə, bu oyunda bir vasitə olub. C.Soros nəzərləri gözlənilən ittihamlardan yayındırmaq üçün Rusiyada yaşayan R.İbrahimbəyov adını tərtib etdiyi siyahıya salıb. Amma sonradan C.Sorosdan və onun Bakıdakı təmsilçilərindən asılı olamayaraq, proseslər məcrasını dəyişib və əks-istiqamətdə inkişaf edib. Daxili çəkişmələr, böyük iddialar, nəhayətdə, Rusiyanın layihəsi kimi təqdim olunan, əslində, C.Sorosun çirkin maraqlarının icrası üçün yaradılan “Milli Şura” dağılmağa məhkum edildi. Artıq bu qurumda “bir həsirin, bir də Məmmədnəsirin qaldığı” məsələnə uyğun olaraq, Ə.Kərimli ilə C.Həsənli qalıb. Onların da orada qalmağı sanki bir qeyrət məsələsidir. Qınaq obyekti olmamaq, ən azı, müsavatçıların atmacalarına tuş gəlməmək üçün “Milli Şura”nı, hələ ki, buraxmağa tələsmirlər. Məlumata görə, “Milli Şura”da baş girələməyin də mənasız olduğunu dərk etdiyindən, qurumu AXCP-yə birləşdirməklə üzləşdiyi problemlərdən bir hissəsini həll etmək istəyir. Buna nail ola bilməsə, “Milli Şura” yükündən imtina etməyi də düşünür. Daha doğrusu, artıq “Milli Şura”nın buraxılması haqqında qurumun koordinasiya şurasının üzvləri arasında qərar qəbul edilib. Yəqin ki, yaxın vaxtlarda Ə.Kərimli tərtib etdiyi planı əsasında qəbul edilən qərarını mətbuata açıqlayacaq. Amma bu arada yayılan məlumat diqqətləri özünə cəlb edib. Belə ki, xaricdəki və daxildəki müxalif qruplar Ə.Kərimliyə siyasətdən getməyi təklif ediblər. Ə.Kərimlinin təklifləri hansı formada dəyərləndirəcəyi müəmmalı olsa da, artıq məlum olanı odur ki, “Milli Şura”nın buraxılması və ya AXCP-yə birləşdirilməsindən sonra Cəmil Həsənli siyasətə “əlvida” deyəcək”.

**İ.ƏLİYEV**



## Xarici dairələrin “zombi”ləşmiş “filial”ı

**RƏFİQƏ**

***Bu gün də Azərbaycanda xaos yaratmağa çalışan dağıdıcı müxalifət partiyalarının “lider”ləri xarici təxribatçı dairələrin maraqlarına xidmət etməklə qrantlar alır, öz antimilli əməlləri ilə öz çirkin niyyətlərini həyata keçirməyə çalışır. Həyasızcasına özlərini “normal müxalifətçi” adlandırırlar. Düzü, bu qədər “qırmızı” olmağı da gərək bacarasan. Belə ki, dağıdıcı düşərgənin “analı”-”atalı” müxalifət “titulu” uğrunda mübarizə aparan AXCP sədri Ə.Kərimli və Müsavatın sabiq başqanı İ.Qəmbər bir-birilərini təhqir etməkdən çəkinməyərək, özlərini “demokratiya carçısı” kimi göstərməyə çalışsalar da, xalqı aldatmaq mümkün deyildir.***

Bütün addımları ilə antimilli olduqlarını əyani şəkildə sübut edən bu fərdlər, uzun illərdir ki, ətraflarındakı başısoyuq adamların boğazına kəndir salıb, sağa-sola gücləri, necə var, fırladırlar. Ancaq bu “demokratiya carçıları”na, əgər “normal müxalifətçisənsə”, o zaman de görək, xarici dairələrdən alınan pul-paralar və daha nələr-nələrin hesabatları hanı? Ancaq mitinqlər keçirməklə, yaxud öz nəzarətlərində olan mətbu orqanlarda şantaj və şər-böhtan xarakterli bəyanatlar verməklə, işlərinizi bitmiş hesab edirsiniz. Bu yerdə Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzovun dəfələrlə dediyi sözü bir daha xatırlatmaq istərdim: “Hər bir partiya Mərkəzi-Seçki Komissiyasına maliyyə hesabatını təqdim etməlidir. Əfsuslar olsun ki, bir sıra partiyalar, ümumiyyətlə, maliyyə hesabatı vermir. Bəziləri isə verdiyi hesabatın qarşısında sıfır rəqəmi yazır. Halbuki kifayət qədər işçiləri var, fəaliyyət göstərir, gündəlik işləyir. Bunlar gedib gündüzlər müəllimlik edib, sonra işləmirlər. Səhərdən-axşama qədər ofislərində fəaliyyət göstərirlər. Amma adına əmək haqqı yoxdur. Yəqin hava ilə yaşayırlar? Bu baxımdan, digər partiyaların balansında maşınları, cangüdənləri və böyük ştatlı aparatları var. Bu, qeyri-şəffaflığa yol açır və qaranlıq mənbələrdən qidalanmanın bariz nümunəsini ortaya qoyur”.

Bax, bu yerdə cavab verməyinizi istərdik, ancaq görünür, bu sizlərə sərf etmir. Çünki müxalifət deyilsiniz. Gülünc vəziyyətə düşmək buna deyirlər. Siz isə... Sual edəndə, pul almadığınızı da deyirsiniz. Sual yaranır: bəs zırpı-zırpı mühafizəçiləri, ofis işçilərini necə saxlayırsınız, onlara necə maaş verirsiniz? Nə qədər pərdələnsəniz də, haqq öz yerini tutur. Son günlər “beşinci kolon” üzvlərinin, anti-milli qüvvələrin atdığı addımlardan görünür ki, onlar aldıqları hər yeni təlimatlara görə daha çox qrantla “mükafatlanırlar”. Doğulub, boya-başa çatdığı vətəninə qarşı əsl düşmənçilik mövqeyi ortaya qoymaq, hətta taleyüklü məsələlərdə belə ermənipərəst mövqeyi ilə gündəm yaratmağa cəhd etmək heç kimə başucalığı gətirməyib və cəbhəçilərə və müsavatçılara da, bu uğur, gətirməyəcək.

# Siyasiləşmiş QHT-lər arasında qarşıdurma dərinləşir

Son vaxtlar xaricdə mühacir həyatı yaşayan siyasiləşmiş QHT-lərdən olan Xədicə İsmayıl, Leyla Yunus, Arif Yunus, Emin Milli, Emin Hüseynov və bu kimi şəxslər arasında bir-birinə qarşı qarşılıqlı ittihamlar genişlənib. Nə baş verir: dünən bir-birinə dəyər və dəstək verənlər, bu gün bi-ri-birindən üz çevirirlər? “İnformasiya Təşəbbüslərinə Dəstək” İctimai Birliyinin sədri Cəsarət Hüseynzadə “Səs” qəzetinə açıqlamasında bunun səbəbini siyasiləşmiş QHT rəhbərləri və xaricdə mühacir həyatı yaşayanlar arasında parçalanmanın baş verməsi ilə əlaqələndirib: “Çünki bu “demokratiya” carçılarının əsas missiyası aldıqları pul müqabilində əmrləri yerinə yetirməkdir. Əsas istəkləri də, ondan ibarətdir ki, hər hansı müxalifət partiya üzvünün törətdiyi əmələ görə həbs edilsin. “Siyasi məhbus” siyahısını genişləndirmək üçün fürsət yaranırsa, demək vəsait də çoxalacaq. Mənasız və boşboğazlığa hesablanan bəyanatlarla çıxış edirlər. Bununla, qeyd etdiyim kimi, onların əsas niyyətləri, məhz bu tip hadisələrdən öz şəxsi mənafeləri üçün istifadə etməkdən ibarətdir”.

C.Hüseynzadə dağıdıcı müxalifət düşərgəsində, eləcə də, siyasiləşmiş QHT-lər arasında yaranan qarşıdurmanın səbəblərindən birini də maliyyə yardımlarından daha çox əldə etməkdir: “Bu baxımdan, hazırda Avropada mühacir həyatı yaşayan qruplar arasında “nüfuz” savaşının baş verməsinin əsas səbəbi növbəti mərhələ üçün daha çox maliyyə əldə etməkdən ibarətdir. Bəllidir ki, 2018-ci il seçki öncəsi və sonrakı dövrlərdə ayrılan maliyyə resursları ilə həmin qüvvələr Azərbaycana qarşı bir cəbhədən mübarizə aparırdılar. Ehtimal etmək olar ki, şəbəkənin birgə fəaliyyəti ilə bağlı müəyyən tələblər qoyulur və bəlli zaman kəsiyində, qrupların birgə fəaliyyəti bu səbəbdən meydana çıxır. Yaxın zamanlarda siyasi mühacirlərin fəallıq göstərmələri, daha doğrusu, onlara böyük dəstəyin verilməsi gözlənilən deyil. Buna baxmayaraq, şəbəkənin mövcudluğunun qorunması üçün mütəmadi kiçik yardımların göstərilməsi davam edəcək. Bu isə, hazırda həmin qüvvələr arasında “nüfuz” savaşının davam edəcəyini göstərir”.





Müsahibimizin sözlərinə görə, regionda baş verən müəyyən dəyişikliklər fonunda da mühacirlərin fəallaşma ehtimalı ola bilər: “Çünki son dövrlər Azərbaycanın bəzi qonşu dövlətlər ilə münasibətlərinin yeni müstəviyə keçməsi, Xəzər dənizinin hüquqi statusu ilə bağlı sahil dövlətlərin razılıq əldə etməsi və digər amillər Qərb dövlətlərinin maraqları xaricindədir”.

**GÜLYANƏ**

# "Milli Şura" "REAL" partiyasına qarşı çox susqun qala bilmədi

## Tərəflər arasında kəskin qarşıdurmaya start verilib

***AXCP sədri Əli Kərimlinin hədəfinə tuş gələn "REAL" partiyası və bu təşkilatın sədri İlqar Məmmədov bu dəfə "Milli Şura"nın hücumuna məruz qalıb. Düzdür, "Milli Şura"nın da, bilavasitə Ə.Kərimlinin dirijor çubuğu ilə idarə olunması hər kəsə bəlli olsa da, bütövlükdə həmin qurumda təmsil olunanların İ.Məmmədova və onun partiyasına qarşı hər hansı bir sərt ittihamına rast gəlinməyib.***



Lakin bu dəfə vəziyyət dəyişib və "Milli Şura"nın daxilində olan digər adamlar da "REAL" partiyasına qarşı ittihamlarla çıxış etməyə başlayıblar. Düşünmək olar ki, bu hücumların arxasında yenə də Ə.Kərimli amili dayanır, ancaq fakt budur ki, "şura"dakılar "realçı"lara qarşı növbəti planlarını icra etməyə başlayıblar. Misal üçün, VHP funksioneri Rafiq Manaflı Ə.Kərimlinin nəzarətində olan "azadlıq.info" saytında "Mitinqin əleyhinə olanlar onu təşkil etmək imkanı olmayanlardır" başlıqlı yazı ilə çıxış edərək, birbaşa "REAL"ın sədri İ.Məmmədovu hədəfə götürüb.

### "Milli Şura" üzvü Rafiq Manaflı "REAL" sədri İlqar Məmmədovu siyasi diletant adlandırıb

Söz yox ki, həmin yazı məhz Ə.Kərimlinin sifarişi ilə həyata keçirilib və onun tapşırığı əsasında sosial şəbəkələrdə paylaşıb. Beləliklə, VHP funksioneri, partiyanın ali məclisinin sədri vəzifəsini daşıyan, eləcə də, "Milli Şura"nın koordinasiya şurasını təmsil edən R.Manaflıya görə, axır vaxtlar mitinqlər siyasətlə məşğul olanların arasında ziddiyyətli diskussiyalara səbəb olub. Onun sözlərinə görə, "REAL" partiyasının aparıcı fiqurları müxalifətin mitinq keçirmək məqsədinin uğursuzluqla nəticələnməsi barədə fikirlər irəli sürərkən, əslində, özlərinin zəifliklərini ortaya qoymuş olurlar. R.Manaflı dolayısı ilə İ.Məmmədovun siyasi təşkilatının mitinq keçirmək üçün imkanı olmadığını və onların "Milli Şura"nın mitinq keçirmək məqsədinə kölgə salmağa çalışdıqlarını bildirib. "Əgər bir siyasətçi olsun, ya siyasətlə maraqlanan olsun, mübarizədə mitinqləri gərəksiz, vaxtı keçmiş mübarizə vasitəsi hesab edirsə, o, ya siyasi diletantdır, ya da yumşaq desək, məqsədli, bir az sərt desək, sifarişlə danışır", deyə "REAL"ın guya hakimiyyətə işlədiyinə işarə edən "Milli Şura" funksioneri, hətta İ.Məmmədovu Donetsk separatçılarına bənzədib, eyni zamanda, İ.Məmmədovdan hər hansı bir siyasi uğur gözləyənlərin əbəs yerə vaxt itirdiklərini bildirib: "Donetsk separatçılarının lideri Zaxarçenko kimi qulduru "ədalətli sandığı səbəbdən, əlisilahlı vuruşan" hesab edən, "obıvatel" səviyyəsində "velikorus" təfəkkür daşıyıcılarının mübarizə üçün göstərdikləri yol da elə həmin təfəkkürün təcəssümüdür. Kökündən yanlışdır. Fərqli intellekt, kreativ yanaşma budursa, heyif, nə isə gözləyənlərin gözləntilərindən".

### "REAL" funksioneri Natiq Cəfərlinin cavabı gecikməyib

Bu arada, onu da xatırladaq ki, İ.Məmmədov avqustun son günlərində öldürülən "Donetsk Xalq Respubikası"nın lideri Aleksandr Zaxarçenkoya sosial şəbəkəsindəki profilində status həsr etmişdi. Bunun ardınca isə, mitinqlərin keçirilməsini hakimiyyətin əlinə oynadığını demişdi. Məhz bu kimi amilləri nəzərə alarsaq, R.Manaflı, nədənsə, birbaşa deyil, ad çəkmədən "REAL" sədrini hədəfinə götürüb və sərt şəkildə tənqid atəşinə tutub. Görünür, İ.Məmmədovun birbaşa adını çəkməmək üçün də Ə.Kərimli ona tapşırıq verib və necə deyərlər, az da olsa, "barmaq yeri" qoymağa çalışıb.

Fəqət, həmin "barmaq yeri" öz funksiyasını reallaşdıra bilməyib və söz yox ki, qarşı tərəf - "REAL" partiyası "daşın" kimin "bostanına" atılmasının fərqinə varıb. O da, əbəs deyil ki, "REAL" partiyasının idarə heyətinin üzvü Natiq Cəfərli dərhal sözügedən yazıya reaksiya verib və mətbuata çıxaraq, R.Manaflıya, bütövlükdə isə, "Milli Şura"ya qarşı cavabını verib. "Hər kəsin öz fikirlərini səsləndirmək haqqı var", deyə bildirən N.Cəfərli "cavab atəşi" açaraq, əslində, "Milli Şura"nın sifarişlər həyata keçirdiyini iddia edib, eyni zamanda, mitinqlə bağlı düşüncələrin doğru olmadığını bildirib: "...Fikirləri kontekstdən çıxarıb, ictimaiyyətə doğru olmayan məlumatların ötürülməsi, ya qərəzli, ya da sifarişli fikir bildirmək metodu hesab etmək olar. Çünki heç kim mitinqlərin tamamilə yararsız və mənasız bir mübarizə üsulu olduğundan danışmayıb, həmçinin, nə İlqar Məmmədov, nə də "REAL" partiyası..."

N.Cəfərli 2013-cü ildən bu tərəfə keçirilən mitinqlərin heç birinin uğurlu alınmadığını diqqətə çatdırıb və bütövlükdə, son 20 ildə ənənəvi müxalifətin uğursuzluğunun səbəblərindən biri kimi bu uğursuzluğu göstərib: "Müxalifətdə olan dostlarımız son 20 ili analiz etsələr və görsələr ki, bu yollarla hansı məqsədlərə çatılıb, yaxud nələrə nail olunub, bax, bunu izah etsələr, insanlar da anlayarlar...."

Beləliklə, görünən budur ki, "Milli Şura"-"REAL" qarşıdurması gizli savaş metodundan aramla açıq meydana çıxmaqdadır. Bu savaşı hansı tərəfin qazanacağını isə, yaxın zaman göstərəcək. Hər halda, iki məğlub tərəfin siyasi çarpışması, məntiqi sonluqla hesablasaq, siyasi məhvləri daha labüd görünür.

**Rövşən RƏSULOV**

# Müsavatdaxili ittihamlar gərginləşir

## İsa Qəmbər yenidən başqan olmaq üçün partiyanı parçalayır

***Müsavat partiyasının 2014-cü ildə keçirilən qalmaqallı qurultayından sonra partiya daxilində cərəyan edən hadisələr elə həmin qurultay ərəfəsində verilən proqnozları reallaşdırmaqdadır. Belə ki, həmin proqnozlardan biri də bu idi ki, İsa Qəmbər başqanlıqdan gedərkən, Arif Hacılını ona görə öz yerinə təyin etdi ki, yenidən başqan olmaq şansını əlində saxlasın. Məhz bu səbəbdən, dərhal "MSDM" adlı qurum yaradaraq, özünü bu qurumun sədri elan edən İ.Qəmbər növbəti qurultaya qədər siyasi arenada qalmaq üçün bundan münbit vasitə tapa bilməmişdi. İndi, artıq həmin məqam yetişib, növbəti qurultayın və başqanlıq seçkilərinin zamanı çatır və İ.Qəmbər köhnə postuna dönmək üçün yeganə çıxış yolunu partiyanı parçalanmaqda görməkdədir. Daha doğrusu, "parçala, hökm sür" ənənəsinə əməl etməyin vaxtıdır.***

### Yarıtmaz siyasətin yarıtmaz nəticələri...

Bu ilin sonuna reallaşdırılan qurultaya hazırlaşmaq məsələsi ortaya çıxar-çıxmaz təşkilatda, ardıcıl olaraq istefalar başlayıb. Müsavatçı Elman Fəttah bildirib ki, nə qədər Arif Hacılı partiyada başqandır, qurultaya qədər bir adam qalmayacaq ki, qurultayda iştirak etsin: "Başqa nəticələr də gözlənilə bilməz. Yarıtmaz siyasətin nəticələri də belə olmalıdır. A.Hacılı partiyanı idaredilməz hala gətirib və hətta öz komandası ona qarşıdır." Faktlar təsdiq edir ki, E.Fəttahla yanaşı digərləri də Arif Hacılının yarıtmaz siyasətindən narazıdır. Əlbəttə, yalnız A.Hacılıya yaxın olan şəxslər klan olaraq onun ətrafında qalmaqda davam etsələr də, gərginlik hiss olunur. Və baş verənlərdən, belə qənaətə gəlmək olur ki, istefaların ardı-arası kəsilməyəcək, sonda Müsavat "bir həsir, bir Məmmədnəsir" deyimli siyasi təşkilat olaraq, qalacaq".

Beləliklə, əksər müsavatçılar bildirirlər ki, qurultaya kimi bu istefalar davam edəcək. Bütün bunlar isə, bilavasitə, İ.Qəmbərin siyasi ambisiyalarının məntiqi nəticələridir ki, A.Hacılı həmin ambisiyaların güdazına həm özünü, həm də partiyanı qurban vermək zorunda qalıb. Hər halda, yarıtmaz siyasətin yarıtmaz da nəticələri olur.

Rəfiqə HÜSEYNOVA

# Bakcell növbəti dəfə sosial şəbəkələrdə cavablandırılmış müraciətlərə görə ən yüksək nəticə göstərdi

***Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti növbəti dəfə nüfuzlu beynəlxalq "Socially Devoted" sertifikatı ilə təltif olunub.***

Xüsusi analitik platforma vasitəsilə dünya üzrə məşhur şirkətlərin sosial şəbəkələrdəki fəaliyyətinin monitorinqi ilə məşğul olan tanınmış "Socialbakers" şirkəti Azərbaycandakı şirkətlərin "Facebook" şəbəkəsində 2018-ci ilin II rübü üzrə fəaliyyətlərini nəzərdən keçirib. Həmin monitorinqin nəticələrinə əsasən, göstərilən müddət ərzində Bakcell şirkəti özünün rəsmi "Facebook" səhifəsinə daxil olmuş müraciətlərin 100%-ni cavablandırıb. Qeyd edək ki, Bakcell şirkəti 2018-ci ilin birinci rübü ərzində də abunəçi sorğularının 100%-ni cavablandıraraq göstərdiyi yüksək nəticəyə görə xüsusi sertifikatla təltif olunmuşdur. Həmçinin, 2017-ci ildə "Bakcell" dörd dəfə "Socially Devoted" sertifikatına layiq görülüb. "Bakcell"in "Facebook" səhifəsinin 400 mindən artıq istifadəçisinin olması bu nailiyyəti daha da vacib və təqdirəlayiq edir.




Sosial media vasitələri məhsul və xidmətlər haqqında məlumatların geniş abunəçi bazasına daha effektiv şəkildə çatdırılması və müştərilərin suallarının cavablandırılması baxımından "Bakcell"in vacib kommunikasiya vasitələrindən biridir. Şirkətin bir çox populyar sosial şəbəkədə rəsmi səhifəsi fəaliyyət göstərir.

Yüksək keyfiyyətli xidmətin göstərilməsi və müştəri məmnuniyyəti "Bakcell"in fəaliyyətinin prioritet istiqamətlərindəndir. Şirkətin müştəri məmnuniyyəti strategiyası dünyanın aparıcı şirkətləri və əhalinin bütün təbəqələrinin tələb və ehtiyaclarının nəzərə alınması ilə yanaşı yerli bazarın tələblərinə əsaslanır.

Bakcell abunəçiləri şirkətin həftənin 7 günü, günün 24 saatı ərzində abunəçilərə yüksək keyfiyyətli xidmət göstərən "555" Məlumat Mərkəzinə və ya sorğuların 100% cavablandırılmasını təmin edən "Facebook" səhifəsinə müraciət edə bilərlər.

# İslam qadınının hüquq və vəzifələri haqqında

***Təbiidir ki, əxlaqi və dini qayda-qanunlara riayət etməyənlər ailənin səadət və xoşbəxtliyini təmin edə bilməzlər. Ona görə də, islam nikahda hər iki tərəfin yüksək əxlaqi keyfiyyətlərə malik olmasına xüsusi diqqət yetirir. Fəsad törədə biləcək nəslin yaranmasına səbəb olan imansız ailələrdən çıxmış adamlarla evlənməyi məsləhət görmür.***

İlahiyyatçı S.M.Musavi yazır: "Cavanlar ailə qurarkən, islamın qayda-qanun və tövsiyələrinə diqqət etsələr, gələcəkdə möhkəm və əsil müsəlman ailəsinin yaradılmasına səbəb ola bilərlər. Müasir dövrdə bəzi cavanlar elə təsəvvür edirlər ki, həyat yoldaşı seçməyin düzgün yolu evlənənə qədər bir-birlərilə gəzibdolanmaq və müəyyən münasibətlərdə olmaqdadır. Halbuki bu cür qanunsuz təmaslar, əksər hallarda, fəsad və əxlaqi pozğunluqlarla nəticələnir. Məhz bu məqsədlə öz müqəddəratını "gələcək həyat yoldaşına" tapşıran, bir müddətdən sonra səhv etdiyini başa düşən aldanmış qızların statistikası adamı dəhşətə gətirir. İnsanların bir-birlərini yaxşı tanıması, adətən, uzun illər boyu davam edən münasibətlər nəticəsində baş verir və qısa müddət ərzində, gələcək "ər-arvad" heç vaxt bir-birləri barəsində düzgün və obyektiv təsəvvürlər əldə edə bilməzlər. İnsanların əxlaqi və ruhi xüsusiyyətləri onların müxtəlif hadisələrlə və həyati sınaqlarla üzləşdiyi vaxt daha yaxşı üzə çıxır. Səbir və dözümlülük, mətanət, fədakarlıq və sair insani keyfiyyətlər, çətin məqamlarda, həyatda qarşıya çıxan təbii imtahanlarda bəlli olur. Amma gəzinti, əyləncə və eyş-işrət vaxtı belə xüsusiyyətlər çox nadir hallarda aşkar edilir. Görəsən, bulvarda, kinoda, restoranda və ya digər əyləncə yerlərində görüşməklə, kiminsə xüsusiyyətlərini lazımi şəkildə müəyyənləşdirmək olarmı? Əlbəttə, qəlbi məhəbbət hissi ilə döyünən gənclər heç vaxt öz nöqsanlarını büruzə vermir, əksinə, süni şəkildə olsa da, özlərini ən yaxşı xüsusiyyətlərə malik adamlar kimi göstərməyə çalışırlar". Ehtirasların coşqun bir dövründə belə münasibətlər vasitəsilə cavanlar bir-birlərinə obyektiv qiymət verə bilərlərmi? Bu şəraitdə qurulan ailə həyatı, adətən, axıradək tab gətirə bilmir. Digər ilahiyyatçı Hacı Əbdürrəhman Yusifpur yazır: "Əziz qadın, məhəbbət ilə kişini özünə cəlb et, ola bilər ki, ərini ürəkdən sevirsən, amma bunu dilinə gətirə bilmirsən, ancaq bil ki, bu, kifayət deyildir. Odur ki, bu məəbbəti dillə də ifadə etməlisən, bəlkə bu halda sənin sözlərindən, hərəkətlərindən eşqin təsiri və bu məsələyə maraq özünü göstərər.

Aradabir "mənim əzizim" deməyin nə ziyanı vardır və ya "səni sevirəm" desən, nə eybi vardır?! Səfərdən qayıdanda, ona təzə bir paltar və ya gül dəstəsi bağışlayıb - yaxşı ki, qayıtdın, ürəyim sənsiz sıxılırdı, - desən, nə yaxşı olar!

Səfərdə olarkən, ona məktub yaz və ayrılıqdan əzab çəkdiyini ona bildir. Əgər ərinin iş yerində və evdə telefon vardırsa, hərdənbir zəng edib, əhvalını soruş.

Əgər adi vaxtdan xeyli gec evə qayıdarsa, de ki, sənin gəlişini gözləyirdim, gec gəlməyindən narahat olmuşdum.

Ərin evdə olmayanda, qohumların yanında onu təriflə, de ki, doğrudan da, yaxşı ərin vardır, de ki, onu çox sevirsən. Əgər birisi onun əleyhinə danışmaq istəsə, ərini müdafiə et".

Şekspir demişdir: "Qadında mənim qəlbimi ovsunlaya biləcək əsas cəhət onun gözəlliyi yox, mehribançılığıdır."

Peyğəmbər (s) buyurmuşdur: "Sizin ən yaxşı qadınlarınız o qadınlardır ki, eşq və məhəbbətə layiq olsunlar".

H.Yusifpur qeyd edir: "Hər bir kəs özü barədə düşünür, özünü üstün hesab edir və başqalarının da ona hörmət bəsləməsini istəyir. Onu təhqir edən şəxslərə nifrətlə yanaşır. Əziz xanım, hər bir kəs sizin ərinizin daxili hisslərini, ehtiyaclarını təmin etməyə hazır deyildir. Mənzildən kənar yerlərdə insan müxtəlif əxlaqlı insanlarla qarşılaşmalı olur, bəzən şəxsiyyətini təhqir də edirlər.

Əziz xanım, ərini həmişə salamla qarşıla, onunla danışanda, həmişə ədəbli olmağa çalış, ona nəzakətlə müraciət et, uşaqlarına da başa sal ki, atalarına ehtiram göstərsinlər. Ərin qapını döyəndə, çalış qapını özün aç. Onu gülərüz və təbəssümlə qarşıla, heç bilirsənmi ki, sənin bu cür davranışın ona necə müsbət təsir göstərəcək, onu necə ruhlandıracaqdır".

Peyğəmbər (s) buyurmuşdur: "Qadının vəzifələrindən biri də budur ki, ərini evin qapısı ağzında qarşılayıb, ona, - xoş gəldin,- desin".

Qadın hamı ilə dostluq münasibətlərini kəsib, mehrini ərinə salır və ərinin də onu bu cür məhəbbətlə sevməsini istəyir.

O kişi gecə-gündüz sənin rahatlığın üçün çalışır, sənə yaxın bir dost, həqiqi sirdaş olur. Əgər ona məhəbbət göstərsən, o da qarşılıqlı şəkildə sənə öz məhəbbətini göstərəcəkdir. Heç bir vaxt demə ki, ərim məni ilk baxışdan sevmişdir və onun məhəbbəti daimidir. Çünki ilk baxışdan yaranan sevgi davam etməyə bilər. Əgər ərini sevirsənsə, deməli, ürəyin həmişə şad və rahat olacaqdır. O, ürəkaçan bir iş və maraqlı həyat niyyətindədir və bütün işlərdə mövqeyi vardır. Kifayət qədər məhəbbət görən kişi ruhi xəstəliklər və əsəb gərginliyi ilə qarşılaşmaz.

Əgər kişi qadının onu sevmədiyini duyarsa, onda qadından soyuyar, işdən və həyatdan bezər, müxtəlif xəstəliklərə düçar olar, evdən çıxıb gedər və avara həyat tərzi keçirməyə başlayar.

Hətta məcbur olub, meyxanalara, qumarxanalara və digər pozğun yerlərə gedər, öz-özünə belə fikirləşər ki, nə üçün öz əməyimin nəticəsini məni sevməyən şəxsə verim, yaxşısı budur ki, kef dünyasına ayaq basıb, özümə kifayət qədər dostlar qazanım.

Peyğəmbər (s) buyurmuşdur: "Hər hansı bir qadın danışığı ilə ərini narahat edərsə və ya ona əziyyət verərsə, onun namazları və digər əməlləri qəbul edilməyəcəkdir. Gündüzlər oruc tutan, gecələr ibadət edən, var-dövlətini Allah yolunda xərləyən hər hansı bir qadının dili pis olarsa, cəhənnəmə vasil olacaq ilk şəxsdir. Qadın həmişə səmimi və mehriban olmalıdır. Heç bilirsənmi ki, məktəbə gedən uşaqları nə qədər təbəssümlə və mehribançılıqla yola salsan, onların əhvalı necə yüksək olacaqdır?

Bir qadın məhkəmədə şikayət etdi ki, ərim həmişə başqa yerlərdə nahar və şam edir. Əri cavab verdi ki, buna görə ki, yoldaşımın dili acıdır.

Məhəmməd peyğəmbərə (s) dedilər: "Bir şəxsin yaxşı arvadı vardır, gündüzlər oruc tutur, gecələr ibadət edir.

H.Yusifpurun fikrincə, həyatın ağırlığı kişinin öhdəsinə düşür və kişi hansı yolla olur-olsun, ailənin ehtiyaclarını, onun xərcini təmin etməlidir. Amma kişi bu yolda müxtəlif vəziyyətlərə düşə bilər, o cümlədən, namünasib insanlarla üz-üzə gələ bilər və ya bazarın qıtlığından yaxşı gəlir də götürməyə bilər. Xərclik qazanmaqdan ötrü münasib bir iş də tapmaya da bilər və ya dəfələrlə maliyyə işçiləri tərəfindən yoxlamaya məruz qala bilər. Bir də ki, axı, insan nə qədər hadisələrə dözə bilər. Burada kişilərə qol-qanad verən qadınlara ehtiyac hiss edilir. Məhz yuxarıda qeyd edilənlərin ucbatından kişilər əksər hallarda qadınlardan daha az yaşayırlar. Qadınlar müxtəlif çətinliklərdən baş götürüb evə pənah gətirən ərinin sevimli xanımları olmalıdırlar. Qadınlar hər gün öz həyat yoldaşının istirahət etməsi üçün lazımi şərait yaratmalıdırlar.

Qadın mülayimliklə, xoş dillə öz ərinin narahatçılığının səbəbini öyrənməli, əgər onun mehribançılıq etmək niyyətində olmadığını hiss edərsə, israr etməməlidir. Amma əgər onun gileyləndiyini görərsə, dərdini söylədiyini müşahidə edərsə, ona tam diqqətlə yanaşmalıdır. Yersiz gülüşdən çəkinin və onun narahatçılığının səbəblərini öyrəndikdə, təəssüfləndiyinizi hiss etdirin. Sonra onun dərdinə-kədərinə şərik ol, yumşaqlıqla onun qəlbini ələ al, məsələni o qədər də böyütmə. De ki, bu kimi hadisələr həyatın qaçılmaz zərurətləridir. Bir qayda olaraq, insanların mərdliyi, şücaəti bu kimi hallarda özünü büruzə verir.

Hörmətli xanım, sən mehriban və səmimi bir qadın kimi həyat yoldaşının qəlbini ələ almalı və onun əsəblərinin sakitləşməsinə şərait yaratmalı, habelə, onu mövcud problemlərlə mübarizə aparmağa hazırlamalısan".

İmam Sadiq (ə) buyurmuşdur: "Dünyada layiqli həyat yoldaşından yaxşı heç bir şey yoxdur."

Həyatda pul qazanmaq o qədər də asan məsələ deyildir. İnsan öz rifahı naminə pulun ardınca gedir və ona böyük maraq göstərir. Birisi əgər başqa bir şəxsə ehsan verirsə, mütləq ondan minnətdarlıq eşitmək istəyir. Əgər öz işi ilə əlaqədar minnətdarlıq görürsə, bu işə daha çox maraq göstərir və yaxşı işlərə meyil edir və tədricən bu bir adətə çevrilir. Əgər onun qədrini bilməsələr, xeyirxah işlər görməkdən çəkinər və deyər: "Heyif deyil, duz-çörək itirən bu, insanlara xeyirxahlıq edəsən".

Hətta başqalarının minnətdarlığına ehtiyacı olmayan Allah-Taala belə yaratdığı nemətləri ilə əlaqədar minnətdarlığı dünya nemətinin əsas şərti hesab edərək deyir: "Əgər minnətdarlıq etsəniz, nemətlərimi artıq edərəm".

Əgər həyat yoldaşın bir şey gətirsə, tez-tələsik onun əlindən al və de ki, təşəkkür edirəm. Əgər o, səni müalicə etdirsə və ya səni səyahətə aparsa, yenə də ona öz minnətdarlığını bildir. Ola bilsin ki, hər hansı bir kişi sənin ərinə xas olan eyiblərə malik olmasın. Amma həmin kişinin başqa eyibləri də ola bilər. Buna görə də, ərinin yaxşı cəhətlərini qiymətləndirməyi bacarmalısan.

Peyğəmbər (s) buyurmuşdur: "Ən böyük eyib odur ki, başqalarının eyiblərini görəsən, amma öz eyiblərindən xəbərin olmasın".

Ola bilsin ki, izdivac etməmişdən qabaq, kimisə nəzərdə tutmusunuz və ya kimsə, məsələn, hər hansı bir varlı şəxs və ya vəzifəli şəxs sizə elçi göndərmişdir, əlbəttə, bunun eybi yoxdur. Amma izdivac etdikdən sonra özünə həyat yoldaşı seçdiyin şəxsə sədaqətli həyat yoldaşı olmalısan. Heç bir vaxt həyat yoldaşını bu və ya başqa bir kişi ilə müqayisə etmə. Həzrət Əli (s) buyurmuşdur: "Öz baxışlarına sərbəstlik verən hər bir kəsin əsəbləri rahat olmaz və həmişə həsrətlə yaşayar".

İmamlar (s) istisna olmaqla, hər bir kəsin səhvləri olur. Əgər ərinin səhvlərini görməzliyə vursan, o, vicdan əzabı çəkər və səni ağıllı, dərrakəli, qüvvətli bir qadın kimi tanıyar.

Ərinin qohumları ilə yaxşı münasibətdə olmağa çalış: Qadın ərinin yaxın qohumlarının təəssübünü çəkir, onun anası, qardaşı və bacısı ilə yaxşı münasibətlər yaradır. Bu baxımdan, qaynanası yeni bir qadının bu evə gəlməsini istəmir, çünki o, evdə olan münasibətləri qıra bilər. Buna görə də, gəlinin işlərinə irad tutur. Təsadüfi deyildir ki, bir neçə gəlin öz ərinin anasının əlindən özünü intihar etmişdir.

Burada çətinlik yaradan əsas cəhət bundan ibarətdir ki, kişi (ər) hər iki tərəfin heç birini ata bilmir.

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 15 sentyabr


## Aralıq dənizində delfinləri məhv edən virus aşkar olunub



Atlantik okeanından Aralıq dənizinə yayılmış yeni virus ştammı delfinlərin məhvinə səbəb olur. AZƏRTAC xəbər verir ki, morbillivirus adlanan bu yeni virus insanda qızılca və iribuynuzlu heyvanlarda taun xəstəliyi törədən viruslar ailəsinə aiddir. Virusun bu növü Aralıq dənizi bölgəsi üçün səciyyəvi olan yerli ştamm ilə müqayisədə daha aqressivdir, lakin o, epidemiyaya səbəb olmur, yalnız ayrı-ayrı fərdlərə təsir edir. Okeanoqrafiya fondundan olan tədqiqatçılar yaranmış vəziyyəti Komplutense Universitetindən və Heyvanların sağlamlığının öyrənilməsi mərkəzindən, habelə Las-Palmas de-Qran-Kanariya Universitetindən olan alimlərlə birgə təhlil edərək bu qənaətə gəliblər.

2011-ci ildə - bu virusun İspaniyada sonuncu dəfə yayıldığı dövrdə ay yarım ərzində təkcə Valensiya sahillərində 50-dən çox delfin cəsədi tapılmışdı. Bir il sonra virusun yeni ştammı aşkar edilib. Alimlər güman edirlər ki, ştammın bu yeni növü Aralıq dənizinə Atlantik okeanı sularında yaşayan virus daşıyıcıları vasitəsilə gəlib çıxıb. Çox ehtimal ki, bunlar delfinlər olub və sonradan yerli delfin növlərinə bu virusu yoluxdurublar.

## Şirin və cır narın müalicəvi təsiri



Nar min bir dərdin dərmanı sayılır. Onun müalicəvi xassələri hələ eramızdan əvvəl assuriyalılara, misirlilərə, yunanlara və romalılara məlum idi. Son araşdırmalar narın zəngin tərkibi olduğunu təsdiqləyir. Özündə kalium, dəmir, kalsium, fosfor, minerallar, C, B1, B2 vitaminləri ehtiva edən narın şirəsindən ürək ağrıları zamanı və öskürək əleyhinə dərman kimi istifadə olunur. Qabıq və çiçəklərinin dəmləməsi boğaz ağrıları zamanı qarqara kimi tətbiq edilir. Bu məhlul diş əti iltihabı zamanı da əvəzsiz vasitədir.

Nar qızdırmanı və yorğunluğu aradan qaldırır, bədənə enerji verir, ürəyi, mədəni və diş ətini qüvvətləndirir. Mədə iltihabı və ağız yarası üçün faydalıdır. İmmun sistemi gücləndirir, xərçəng xəstəliyindən qoruyur, təzyiqi aşağı salır, damar sərtliyinin qarşısını alır. Həmin xüsusiyyətlərinə görə nar, ürək-damar xəstəliklərinə qarşı ən yaxşı qoruyucu vasitə hesab olunur. Narın qabıqlarından hazırlanan dəmləmə ishalı kəsir, bağırsaq qurdlarını tökür, dənələrini örtən pərdə isə həzmi asanlaşdırır.

Tərkibi antioksidantlar və virus əleyhinə bakteriyalarla zəngin olan nar meyvəsi zökəm xəstəliyində yaxşı təsir göstərir. Gün ərzində bir stəkan nar suyu içmək gün boyu gümrahlıq hissi yaradır.

Şirin nar mədənin fəaliyyətini genişləndirir, yanma hissini aradan qaldırır. Böyrək və qaraciyərində problemi olanlara nar şirəsi içmək xeyirlidir. Şəkər xəstələrinə isə cır nar şirəsini içmək məsləhət görülür. Cır nardan hazırlanan narşərab həzm prosesinə kömək edir və sinqa xəstəliyinin müalicəsində yaxşı səmərə verir.

## Yağlı süd məhsulları ömrü uzadır

Mütəxəssislər pəhriz saxlayanların kaloriləri süd məhsullarının daha az yağlılarından istifadə etməklə azaltmalarının yanlış olduğunu bildiriblər. Belə ki, süddən hazırlanmış qidaların daha yağlıları ömrü 25 faiz uzatmağa kömək edir.

Bu barədə vistanews.ru saytı yazır. Məlumatda deyilir ki, mütəxəssislər bu qənaətə 21 ölkədən olan 130 nəfərin iştirak etdiyi tədqiqatların nəticəsində gəliblər. Alimlərin fikrincə, yüksək kalorili süd məhsulları ürək-damar xəstəliklərinin qarşısını alır. Bu məhsulların arasında orqanizmə ən müsbət təsir göstərən isə yağlı süd və yoqurtlardır. Daha yağlı süd qidaları ürək patologiyalarından qorumaqla ömrü 25 faiz uzatmağa kömək edir. Alimlər bütün pəhriz saxlayanları kaloriləri süd məhsullarının deyil, digər qidaların hesabına azaltmağı məsləhət görürlər. Bu, karbohidratlar və ya qırmızı ət ola bilər. Az kalorili süd məhsullarına keçmək xüsusilə yaşlı insanlar üçün təhlükəli ola bilər.


ELAN

**Azərbaycan Dövlət Dəniz Akademiyasının "Gəmi Mexanikası" fakültəsinin II kurs, 187 A/30 saylı qrupun tələbəsi Əsədullayev Ravid Şakir oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**


## Gimnastımız dünya çempionatının finalına çıxıb



Azərbaycan gimnastı Zöhrə Ağamirova Sofiyada keçirilən bədii gimnastika üzrə dünya çempionatında çoxnövçülüyün finalına çıxıb. SİA-nın məlumatına görə, Azərbaycan Gimnastika Federasiyasından bildirilib ki, Zöhrə Ağamirova dörd növ üzrə çıxışın yekunlarına əsasən 50.650 bal toplayaraq 22-ci yeri tutub və finala çıxıb. Ondan azacıq geri qalan Veronika Qudis 25-ci mövqedə qərarlaşaraq ehtiyat gimnastların sırasında yer alıb.

Azərbaycanın bədii gimnastika yığması Sofiyada keçirilən dünya çempionatında komanda hesabına görə 9-cu yeri tutur. Yığmamız Zöhrə Ağamirova, Veronika Qudis və Darya Sorokinanın səyləri sayəsində 131.700 bal toplayıb ki, bununla da Özbəkistan, Sloveniya, Qazaxıstan, Koreya, Çin, Kanada, Polşa, İspaniya və digər ölkələrin komandalarını geridə qoyub. Dünya çempionatında hələ ki Rusiya yığması liderdir. Ondan sonrakı mövqelərdə Bolqarıstan və İtaliya gimnastları qərarlaşıb.

## Azərbaycan çempionatının qalibləri məlum olub



Şüvəlan qəsəbəsində yerləşən Ağır Atletika Akademiyasının yarış zalında keçirilən Azərbaycan birinciliyinin ikinci günündə yuxarı çəki dərəcəsində mübarizə aparan atletlər qüvvələrini sınayıblar. SİA-nın məlumatına görə, körpücük üzərinə son olaraq 85, 94 və +105 kiloqram çəki dərəcələrində yarışan atletlər çıxıblar. Çəkisi 85 kiloqram olan atletlərin mübarizəsində ümumilikdə 250 kiloqram nəticə göstərən Cavid Rəhimli yarışın qızıl mükafatçısı olub. Mamayev Yaşar ikinci (220), Quliyev Əli isə üçüncü yeri tutub.

Babayev Tərmənxan 94 kiloqram çəki dərəcəsində 300 kiloqram nəticə ilə birinci yerə yüksəlib, Şükürlü Əli isə yarışı ikinci pillədə (261) başa vurub. Çəkisi +105 kiloqram olan atletlərin mübarizəsində isə Qurbanov İsmayıl 287 kiloqram nəticə ilə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Q.İsmayıldan ümumilikdə üç kiloqram az qaldıran Kazimov Rəhman ikinci, Kalayev Asxab isə 257 kiloqram nəticə ilə üçüncü pillədə qərarlaşıblar.

## Useyn Bolt çəkisizlik şəraitində yarışıb



Qısa məsafəyə qaçış üzrə ixtisaslaşmış, 8 qat Olimpiya çempionu, yamaykalı Useyn Bolt sıfır qravitasiya şəraitində qaçışda iştirak edib. "Sports Illustrated" portalının məlumatına görə, qaçış Fransa üzərindən uçan, modifikasiya edilmiş "Airbus Zero-G" təyyarəsində keçirilib. SİA RİA Novosti saytına istinadla xəbər verir ki, yüngül atletikada karyerasını başa vurmuş, planetin ən bərk qaçan sakini qaçışda iki kosmonavtla yarışıb və sonda qələbə qazanıb. Bolt sıfır qravitasiya şəraitində dörd dəqiqə olub və keçirdiyi hissləri "Twitter" səhifəsində paylaşıb. O bildirib ki, özünü "şirniyyat mağazasındakı uşaq kimi" hiss edirmiş.

Xatırladaq ki, Useyn Bolt hazırda 100 metr (9,58 saniyə) və 200 metr (19,19 saniyə) məsafələrə qaçış üzrə dünya çempionudur. Son vaxtlar qüvvəsini futbolçu qismində sınayır.

## AFFA-nın Hakimlər və Hakim-İnspektorlar Komitəsinə yeni sədr təyin edilib




AFFA-nın Hakimlər Komitəsi və Hakim-İnspektorlar Komitəsi birləşdirilib. SİA-nın məlumatına görə, bununla bağlı qərar AFFA İcraiyyə Komitəsinin dünənki iclasında qəbul edilib. Quruma avstriyalı sabiq FİFA referisi Fritz Stuxlik sədr təyin olunub. Yeni struktur Hakimlər və Hakim-İnspektorlar Komitəsi adı altında fəaliyyət göstərəcək. Beləliklə, Xaqani Məmmədov Hakimlər Komitəsi, Əli Hüseynov isə Hakim-İnspektorlar Komitəsindəki sədr vəzifələrini itiriblər.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**